DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (376) / FEVRAL 2023-CÜ İL

# PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI ABİDƏSİNİ ZİYARƏT EDİB




XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 31-ci ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət edib.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

## DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALAR ARASINDA YAZI MÜSABİQƏSİ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev siyasəti: Azərbaycanın dövlət-din modeli" mövzusunda dini icmaların üzvləri arasında yazı müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, tolerantlıq mühitinin dövlət-din konsepsiyasına uyğun möhkəmləndirilməsi, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən strategiyanın əhəmiyyətindən bəhs edən məqalələr göndərilə bilər. Həmçinin Azərbaycan xalqının spesifik keyfiyyəti kimi tolerantlığa, onun möhkəmləndirilməsində, beynəlxalq miqyasda təbliğ edilməsində və dünyada nümunə kimi qəbul olunmasında Heydər Əliyevin xidmətlərinə və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasətə həsr olunmuş məqalələr qəbul olunur.

**1.Müsabiqənin şərtləri**

- müsabiqəyə hər müəllif yalnız bir yazı təqdim edə bilər;
- yazı mövzuya uyğun olmalıdır;
- yazıya uyğun olaraq yaradıcı başlıq müəyyənləşdirilməlidir;
- yazının həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- müsabiqə üçün verilmiş yazı qəzetdə çap edilərsə, qəzetin həmin sayının 1 nüsxəsi Dövlət Komitəsinə təqdim olunmalıdır;
- yazı elektron media resursunda yayımlanarsa, link yazıya əlavə edilərək, redaksiya@scwra.gov.aze-mail ünvanına göndərilməlidir;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev və ya iş telefonu, mobil telefonu, e-mail ünvanı yazıya əlavə edilməlidir.

**2. Mükafat**

I (1 nəfər) yer – 500 AZN
II (1 nəfər) yer – 400 AZN
III yer (1 nəfər) – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat.

**3. Müsabiqənin müddəti: Məqalələr 2023-cü il 10 aprelədək təqdim edilməlidir.**

**Ünvan:** Bakı şəhəri, Əhməd Cavad küç., 16 **Əlaqə telefonları:** (012) 505 78 16 / (012) 505 78 19 **E-mail:** redaksiya@scwra.gov.az

**AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YARADILMASININ BEŞ İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL EDİLİB**
Səh. 3-4

**İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN MÜSAHİBƏ KEÇİRİLİB**
Səh. 5-6

**DİNİ KONFESSİYA NÜMAYƏNDƏLƏRİ XOCALI SOYQIRIMI QURBANLARINI ANIBLAR**
Səh. 6

# PREZİDENT İLHAM ƏLİYEV: "YƏHUDİ İCMASI AZƏRBAYCANDA DOSTLUQ, MEHRİBANLIQ VƏ QARŞILIQLI ANLAŞMA MÜHİTİNDƏ YAŞAYIR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münxendə Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit ilə görüşüb.

Görüşdə dövlətimizin başçısı tarixən yəhudi icmasının Azərbaycanda dostluq, mehribanlıq və qarşılıqlı anlaşma mühitində yaşadığını, dini ibadətlərini sərbəst yerinə yetirdiyini, sinaqoqların fəaliyyəti üçün şəraitin yaradıldığını qeyd edib.

Azərbaycanın Quba rayonunda yaşayan yəhudi icması haqqında danışan Prezident İlham Əliyev dövlətimiz tərəfindən yəhudi icmasına daim dəstək göstərildiyini, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlərin görüldüyünü vurğulayıb. Dövlətimizin başçısı bunun minilliklər boyu Azərbaycan xalqının həyat tərzi olduğunu diqqətə çatdırıb.

Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit 1997-ci ildə Azərbaycana səfərini və Ulu Öndər Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırladıb, Ümummilli Liderlə görüşün onda zəngin təəssürat yaratdığını qeyd edib. O, Azərbaycanın yəhudi icmasının fəaliyyətini möhkəm təməllər üzərində davam etdirdiyini vurğulayıb, onlara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirib.



Pinhas Qoldşmit Azərbaycanda müxtəlif dinlərin nümayəndələri, o cümlədən yəhudi icması üçün yaradılmış şəraitin digər ölkələrə nümunə olduğunu deyib. O, Quba rayonuna səfər etdiyini və burada yəhudi icmasının yaşayış şəraiti ilə tanış olduğunu vurğulayıb, orada 13 sinaqoqun fəaliyyət göstərməsinin onda dərin təəssürat yaratdığını deyib.

Avropa Ravvinləri Konfransının prezidenti Azərbaycan ilə İsrail arasında əlaqələrin hərtərəfli inkişafının məmnunluq doğurduğunu, dünyanın müxtəlif ölkələrində yaşayan yəhudi icmalarının da bu əlaqələrin inkişafına töhfə verdiyini qeyd edib.

Prezident İlham Əliyev Azərbaycan ilə İsrail arasında tərəfdaşlıq və dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanın İsraildə səfirliyinin açılmasının bu əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə Avropa yəhudi icmasının nümayəndələrinin Azərbaycana səfər etmək niyyətində olduqları vurğulanıb.

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanununun tətbiqi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 329; 2012, № 4, maddə 294; 2013, № 8, maddə 908; 2015, № 9, maddə 987; 2017, № 6, maddə 1097; 2019, № 5, maddə 840; 2021, № 6 (I kitab), maddə 578; 2022, № 3, maddə 216) 2.2-ci bəndində "dördüncü və beşinci" sözləri "beşinci və altıncı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 698-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 fevral 2023-cü il**

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443; 2016, № 12, maddə 1985; 2017, № 6, maddə 1047; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 545; 2022, № 3, maddə 192) 12-ci maddəsinin dördüncü – səkkizinci hissələri müvafiq olaraq beşinci – doqquzuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar dini qurumdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi dini qurumun razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya dini qurum tərəfindən təmin edilir".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 dekabr 2022-ci il**

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə cəmiyyətdə etnik-dini müxtəlifliyin qorunması və multikultural dəyərlərin daha da inkişaf etdirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 fevral 2023-cü il**

# Dini konfessiyaların rəhbərlərindən

Möhtərəm cənab Prezident.

Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Zati- alilərinizə səmimi arzularımızı və xeyir-dualarımızı yetirir, multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına, dini qurumların problemlərinə həssas münasibətinizə və özəl qayğınıza görə dərin minnətdarlığımızı bildiririk.

Zati-aliləri, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və iqtisadi qüdrətinin artmasında Sizin misilsiz xidmətləriniz vardır. Siz, bir dövlət başçısı kimi milli-mənəvi dəyərlərin, dini və tarixi abidələrin qorunması sahəsində böyük işlər görmüş bir şəxsiyyətsiniz. Bu müraciəti imzalayanlar şəxsən Sizinlə görüşlərin dərin təəssüratını heç vaxt unutmurlar. Sizin qeyd etdiyiniz kimi, Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Biz tam əminliklə deyə bilərik ki, bu gün Azərbaycanda Sizin fövqəladə səylərinizlə mövcud olan ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik, din-dövlət münasibətləri və etnik-dini tolerantlıq Zati-alilərinizin uğurlu siyasətinin məntiqi nəticəsidir. Həmçinin Prezidentimizin silahdaşı, siyasi və ictimai xadim, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dini-mədəni irsin qorunması sahəsində gördüyü fövqəladə işlər vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir, dindarlarımızın xeyir-duaları ilə qarşılanır.

Artıq neçə müddətdir ki, Azərbaycan xalqı öz tarixinin ən möhtəşəm dönəmini - Vətən müharibəsindəki Qələbənin qürurunu yaşayır. Biz, din xadimləri, fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə Qarabağ Fatehi kimi yazılan cənab Ali Baş Komandan İlham Əliyevdir. Bölgənin qısa zaman içərisində yenidən qurulması, işğaldan azad olunan Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi - bunların hamısı Prezidentimiz İlham Əliyevin yenilməz nüfuzu və əzmi sayəsindədir. Əminik ki, multikultural ənənələrə, milli-mənəvi dəyərlərin inkişafına və mədəni irsin qorunmasına xidmət edən dövlətimiz dünyada sülhün və tolerantlığın təbliği sayəsində bədxah qüvvələrin ideoloji təxribatlarının qarşısının alınmasında mühüm rol oynayacaqdır.

Zati-aliləri, İlahi hikmətə ehtiram - dinindən, milliyyətindən asılı olmayaraq bizi hər zaman qardaş kimi Sizin ətrafınızda cəm etmişdir. Bu, həm Uca Yaradanımızın istəyi, həm bütün bəşərə nümunə olan Azərbaycan modeli, həm də bu il 100 illik yubileyini qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin vəsiyyətinə sadiqliyimizin təcəssümüdür. Mənəvi həmrəylik mühitində yaşamağımız dövlətimiz tərəfindən dəstəklənir, dünya bizim bu həyat təcrübəmizi bəyənir, dəyərli örnək olaraq təqdir edir. Bizim üçün böyük şərəfdir ki, Siz hər il Azərbaycandakı dini konfessiyalara himayə və qayğınızı əsirgəmirsiniz. Biz buna görə Zati-alilərinizə dərin təşəkkürümüzü bildirir, böyük ehtiram hissi ilə Sizə və ailənizə uzun ömür, cansağlığı, şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq. Dini icmalarımız üçün çox önəmli olan bu yardım bizim bərabərlik və tolerantlığımızın ən bariz nümunəsi sayılır və biz ümid edirik ki, Sizin maddi-mənəvi dəstəyiniz sayəsində bizim gələcək fəaliyyətimiz üçün geniş imkanlar açılacaqdır.

Biz dindarlar Azərbaycan xalqının gələcəyi və rifahı naminə Sizin fəaliyyətinizi hər zaman bəyənir və dəstəkləyirik. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, haqqın qalibiyyəti daima Zati-alilərinizlə olacaqdır. Bu, bizim ümidimiz və Sizə ünvanlanan dualarımızdır.

Uca Yaradan hər zaman yardımçınız olsun! Amin!

Dərin hörmət və ehtiramla,

**Şeyxülislam Allahşükür Paşazadə,** Qafqaz Müsəlmanları İdarəsinin sədri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurasının sədri,
**Milix Yevdayev,** Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,
**Vladimir Fekete**, Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi,
**Arximandrit Aleksiy,** Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi,
**Aleksandr Şarovski,** Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,
**Robert Mobili,** Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri.

Azərbaycan Respublikası,
Bakı şəhəri

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YARADILMASININ BEŞ İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL EDİLİB

Fevralın 9-da Azərbaycan İlahiyyat İnstitutunun (AİI) yaradılmasının beş illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə öncə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların və qardaş Türkiyə Respublikasında zəlzələ nəticəsində dünyasını dəyişənlərin ruhları birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra AİI-nin tələbəsi Yusif Nəcəfovun təqdimatında Quran tilavəti təqdim olunub.

Açılış nitqi ilə çıxış edən AİI rektoru Aqil Şirinov öncə qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib.



A.Şirinov bildirib ki, Sərəncamda da qeyd edildiyi kimi, xalqımızın tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan milli-mənəvi dəyərlərin qorunub-saxlanılması üçün çalışacaq, dini ədavət və düşmənçilik meyillərinin qarşısını alacaq yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının əsas mahiyyətini ehtiva edir.

Rektor diqqətə çatdırıb ki, ali təhsil müəssisəsinin yarandıqdan sonra apardığı tədris, təşkil etdiyi respublikadaxili və beynəlxalq elmi konfranslar, simpoziumlar, forumlar, eləcə də akademik heyətin din sahəsinə töhfə verən elmi araşdırmaları, xalqın dini baxımdan düzgün istiqamətdə maarifləndirilməsi prosesində yaxından iştirak etməsi İnstitutun Azərbaycan ictimaiyyətinin etimadını qazanmasına səbəb olub: "İlahiyyat sahəsindəki problemləri araşdıran, təhlil edən, elmi tədqiqatlar aparan və bu nümunələri çap etməyi əsas məqsədlərdən biri hesab edən Azərbaycan İlahiyyat İnstitutu keyfiyyətli nəşrləri ilə yerli və xarici elmi ictimaiyyətin daim diqqət mərkəzində olmağa çalışır.

Tədris proqramlarını beynəlxalq standartlara uyğun quran, şəffaf və keyfiyyətli tədris həyata keçirən Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrin genişlənməsini daim diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, institut dünyanın 25-dən çox aparıcı ali təhsil müəssisəsi ilə imzaladığı protokollara uyğun olaraq, həmin ali təhsil ocaqları ilə tələbə mübadiləsi həyata keçirir".

Azərbaycan İlahiyyat İnstitutunun uğurunun bütün kollektivin uğuru olduğunu bildirən A.Şirinov kollektivin hər bir üzvünü ali təhsil müəssisəsinin yaradılmasının beş illiyi münasibətilə təbrik edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Konstitutsiyada dövlət-din modeli müəyyən olunub. Respublikamız çoxmədəniyyətli, çoxkonfessiyalı, eyni zamanda İslam dəyərlərinin daşıyıcısı olan vətəndaşlarının say çoxluğu olan ölkələr sırasındadır. Ona görə də strateji baxımdan Azərbaycanda din sahəsində tolerant, multikultural və islami dəyərlərimizə uyğun vəhdəti təşviq edən nümunəvi siyasət formalaşdırılıb. Ulu Öndərin əsasını qoyduğu dövlət-din münasibətləri modeli bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən zamanın

davamı səh. 4

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YARADILMASININ BEŞ İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL EDİLİB

əvvəli səh. 3 tələblərinə uyğun olaraq daha da gücləndirilib və elə bir səviyyəyə çatdırılıb ki, artıq bu model dünyada nümunə kimi qəbul olunur. Dövlət Komitəsinin sədri vurğulayıb ki, artıq İlahiyyat İnstitutunun hazırladığı yüksəkixtisaslı kadrlar ölkəmizdəki yüksək dini-mənəvi mühitin, dinlərarası harmoniyanın qorunub-saxlanılması prosesində iştirak edirlər. İlk tələbə buraxılışını həyata keçirən Azərbaycan İlahiyyat İnstitutunun məzunları rəsmi din xadimləri kimi fəaliyyət göstərirlər.

Mübariz Qurbanlı diqqətə çatdırıb ki, dini siyasiləşdirmək, dindən sui-istifadənin, eləcə də ölkəmizdəki ictimai sabitliyi, mənəvi birliyi pozmaq üçün edilən cəhdlərin qarşısını almaq bu sahədə çalışan kadrların ən ümdə vəzifələrindən biridir. Əlavə edib ki, xalqımızın milli-mənəvi dəyəri olan İslam dini əsrlərboyu nəsillərdən nəsillərə ötürülərək bu günə gəlib çatmışdır. Din pərdəsi adı altında bu dəyərlərə yad ideologiyaların təbliğinin qarşısının alınmasında, maarifləndirmə işinin effektivliyinin artırılmasında bütün səylərimizi birləşdirməliyik.

DQİDK sədri çıxışının sonunda Azərbaycan İlahiyyat İnstitutunun kollektivini və tələbələrini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, ali təhsil müəssisəsinə hədiyyə təqdim edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər Zülfüqarov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru Gövhər Baxşəliyeva, millət vəkili Ceyhun Məmmədov, Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri adından professor Şahlar Əsgərov, dini konfessiya nümayəndələri adından Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxış edərək Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının beş illiyi münasibətilə kollektivi təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun beşillik fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 1-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Ould ilə görüşüb.

Dövlət Komitəsinin sədri görüş zamanı dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, ölkədə hökm sürən tolerantlıq mühiti, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə məlumat verib. Bildirib ki, dünyəvi dövlət olan Azərbaycanın konfessiyalara münasibətində bərabərlik prinsipi mütləq mənada qorunur. 37-si qeyri-islam təmayüllü olmaqla dövlət qeydiyyatına alınan 993 dini icmanın fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər görülür. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməklə yanaşı, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır. Komitə sədri, həmçinin ermənilərin Qarabağ və ətraf rayonların işğalı zamanı törətdiyi vandalizm aktları, Azərbaycan xalqına məxsus olan mədəni-dini irsi yerlə-yeksan etməsi, Qafqaz Albaniyasına aid tarixi-dini abidələrin daxili və xarici görkəmlərinin dəyişdirilərək qriqoriyanlaşdırması kimi faktlara toxunub. Artıq tarixi-dini abidələrin dövlət tərəfindən bərpa edilməsi prosesinin başladığını vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir multikultural və tolerant mühitin Azərbaycanda yüksək səviyyədə hökm sürdüyünün şahidi olduğunu, müxtəlif mədəniyyət və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını deyib.

Görüşün sonunda səfirə DQİDK-nın ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

***

Fevralın 20-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Mədəni müxtəliflikdə birlik: Azərbaycan nümunəsində" adlı XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilə görüşüblər.

Əvvəlcə Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Mübariz Qurbanlı layihənin Azərbaycanın tolerantlıq



modeli ilə əyani tanışlıq, eləcə də bu dəyərlərin beynəlxalq aləmdə təbliği və təşviqi baxımından önəmini qeyd edib. Vurğulayıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Bildirib ki, Azərbaycanda bütün dinlərin mənsublarına bərabər şərait yaradılır, onların öz inanc və etiqadlarına uyğun yaşamaları üçün lazımi tədbirlər görülür. Dövlət Komitəsinin sədri dinlərin sülhyaratma, dialoq və əməkdaşlıq imkanlarından maksimum istifadənin önəminə toxunub. Bu prosesdə fəal iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini vurğulayıb.

Daha sonra Qış Məktəbinin müxtəlif ölkələrdən olan tələbələrinin sualları cavablandırılıb.

Qeyd edək ki, "Heydər Əliyev İli"nə həsr olunan XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbində Azərbaycan, Türkiyə, Braziliya, Rumıniya, Almaniya, Fələstin, Rusiya, Amerika Birləşmiş Ştatları, Gürcüstan, Pakistan, İraq, Bolqarıstan, Mozambik, Mərkəzi Afrika Respublikası, Suriya, Şri-Lanka, Çin və Yaponiya kimi ölkələrin aparıcı universitetlərindən 30 tələbə iştirak edib.

***

Fevralın 24-də DQİDK sədrinin müavini Səyavuş Heydərov Cənubi Karolina "Gateway" Baptist kilsəsinin baş pastoru Don Brok və Şimali Trenholm Baptist kilsəsinin baş pastoru Kasey Villiams ilə görüşüb.

Görüşdə Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərinə toxunulub. Ölkəmizdə qeyri-müsəlman dini icmalarına, o cümlədən baptist icmalarına yaradılan şərait, dini konfessiyalara dövlət tərəfindən göstərilən qayğıdan bəhs olunub.

Azərbaycanın tarixi tolerantlıq ənənələrindən danışan qonaqlar ölkəmizdə şahidi olduqları həmrəylik mühitini, baptist icmalarına göstərilən yüksək diqqəti xüsusi vurğulayaraq müxtəlif dini etiqadlara göstərilən diqqətin bütün dünya üçün nümunəvi model təşkil etdiyini bildiriblər.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə



fikir mübadiləsinin aparıldığı görüşün sonunda Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən bəhs edən kitablar qonaqlara təqdim olunub.

# ÖLKƏDƏKİ BÜTÜN MƏSCİDLƏRDƏ XOCALI SOYQIRIMININ QURBANLARI YAD EDİLİB

Azərbaycandakı bütün məscidlərdə Xocalı soyqırımının qurbanları yad edilib, namazlar qılınıb. Bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə jurnalistlərə açıqlamasında deyib.

"İctimaiyyətə Xocalı soyqırımının həqiqətləri çatdırılır. Həmçinin dini konfessiyalarla birlikdə dünya ictimaiyyətinə bəyanat da ünvanlamışıq. Dünyada Xocalı soyqırımının təkrarının olmaması üçün beynəlxalq təşkilatların diqqətinə həqiqətləri bir daha çatdırdıq. Dünya ictimaiyyəti bundan dərs götürəcək" - deyən A.Paşazadə bu kimi faciələrin bir daha baş verməyəcəyinə inamını ifadə edib.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SALYANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 16-da Salyan, Neftçala, Şirvan və Biləsuvar rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl Salyan şəhərinin mərkəzindəki Heydər Əliyev Parkında Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.



Dövlət Komitəsinin aidiyyəti struktur bölməsinin rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNDƏ VAKANT VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN MÜSAHİBƏ KEÇİRİLİB

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən 13-15 fevral 2023-cü il tarixlərində İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün növbəti dəfə müsahibə keçirilib. 25 oktyabr-25 noyabr 2022-ci il tarixində elan edilən müsahibənin bu mərhələsində qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün müraciət edən namizədlərin seçimi aparılıb. Qadın din xadimləri ilə bağlı Bakı, Sumqayıt, Gəncə, Şəki, Zaqatala və Quba şəhərlərində, eləcə də Lənkəran rayonunda yerləşən 7 vakant yer üzrə 71 müraciət qeydiyyata alınıb.

Azərbaycan İlahiyyat İnstitutunun binasında təşkil olunan müsahibə DQİDK-nın ilahiyyatçılardan təşkil etdiyi Müsahibə Komissiyası tərəfindən aparılıb. Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Sevinc Alızadə də müsahibədə müşahidəçi qismində iştirak edib.

Şura sədri müsahibə prosesini izləyərək Müsahibə Komissiyasının üzvləri tərəfindən namizədlərə verilən sualların "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması və attestasiyası üzrə proqram"a uyğunluğunu müəyyənləşdirməklə yanaşı, iddiaçıların imtahana hazırlıq səviyyələri ilə də tanış olmaq imkanı əldə edib. Müşahidənin sonunda fikirlərini bölüşən S.Alızadə müsahibənin şəffaf təşkilini və reqlamentə uyğunluğunu yüksək qiymətləndirib.

***

16-24 fevral 2023-cü il tarixlərində isə imam və imam müavinləri vəzifələri üzrə müsahibə keçirilib. Respublikanın, demək olar ki, bütün bölgələrini əhatə edən 37 vakansiya üzrə 183 müraciət qeydiyyata alınıb.

DQİDK-nın ilahiyyatçılardan təşkil etdiyi Müsahibə Komissiyası tərəfindən aparılan müsahibə Azərbaycan İlahiyyat İnstitutunun binasında təşkil edilib.

Müsahibənin nəticələri Komitənin rəsmi internet saytında (scwra.gov.az) yerləşdirilib. Uğur qazanmış namizəd təsdiq edilmiş qaydalara əsasən müsahibə bitdikdən sonra 30 iş günü müddətində Komitə sədrinin əmri ilə İslam dininə aid ibadət yerinə və ya ziyarətgaha rəsmi təyinat alacaq.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanıb. Bu qaydaya əsasən Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün mütəmadi olaraq müsahibələr təşkil edilir.

## 13-24 fevral 2023-cü il tarixlərində keçirilən müsahibədən keçmiş şəxslərin siyahısı

| № | Soyad/Ad/Ata adı | Müraciət etdiyi vakansiya |
|---|---|---|
| 1 | Rzayeva Aynurə Kamil qızı | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 2 | Cəfərova Fatimə Tərlan qızı | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 3 | İbrahimova Şəfa Faiq qızı | Sumqayıt şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 4 | Hacıbalayeva Könül Cəlaləddin qızı | Quba şəhəri, "Hacı Cəfər" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 5 | Müzəffərova Marziya Kibarovna | Şəki şəhəri, "Mərkəzi Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 6 | Xasməmmədli Nabat Sahib qızı | Gəncə şəhəri, Bala Bağman "Fatimeyi-Zəhra" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 7 | Çalikova Elmira Ömər qızı | Sumqayıt şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 8 | Şahverdiyeva Mədinə Oruc qızı | Zaqatala şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 9 | Təhməzova Nərgiz Aydın qızı | Zaqatala şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 10 | Müzəffərova Əzimə Ramiz qızı | Quba şəhəri, "Hacı Cəfər" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 11 | Orucova Elnarə Cəlal qızı | Suraxanı rayonu, "Fatimeyi-Zəhra" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 12 | Rəsulova Nərgiz Fazil qızı | Sumqayıt şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 13 | Müzəfərova Aynur Səlimxan qızı | Gəncə şəhəri, Bala Bağman "Fatimeyi-Zəhra" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 14 | Babayeva Rahilə Camaləddin qızı | Şəki şəhəri, "Mərkəzi Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 15 | Ağayeva Şəlalə Əfqan qızı | Şəki şəhəri, "Mərkəzi Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 16 | Bayramova Türkan Aslan qızı | Sumqayıt şəhəri, "Cümə" məscidi, Qadın dini ayinlərin icraçısı |
| 17 | İsmayılov Fərid Fəxrəddin oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 18 | Abışov Niyamiddin Qaraxan oğlu | Sabirabad rayonu, Qaragüney kənd "İmam Hüseyn" məscidi, İmam müavini |
| 19 | Fəttayev Fəttə Qubad oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 20 | Abışov Ceyhun Şahin oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 21 | Rzayev İdris Cənnət oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 22 | Rəhimov Mübariz Fədail oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 23 | Mirzəyev Əbdülhüseyn Əbdülhəsən oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 24 | Səmədov Məcid Ələsgər oğlu | Saatlı şəhəri, "Şeyx Yusif" məscidi, İmam |
| 25 | Babaşov Saleh Zubeyir oğlu | Saatlı şəhəri, "Şeyx Yusif" məscidi, İmam |
| 26 | Bayramov Rəmzin Ruşan oğlu | Masallı rayonu, Şıxlar kənd məscidi, İmam müavini |
| 27 | Hüseynov Nicat Nizami oğlu | Sabunçu rayonu, Sabunçu qəsəbə məscidi, İmam müavini |
| 28 | Həsənli Kamal Yaşar oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 29 | Əliməmmədov Cəlal Mövlan oğlu | Quba rayonu, Digah kənd məscidi, İmam müavini |
| 30 | Əbdürəhimov Pünhan Qasım oğlu | İsmayıllı rayonu, Lahıc qəsəbəsi, "Bədöyün" məscidi, İmam müavini |
| 31 | Qurbanov Aftandil Kitab oğlu | Astara rayonu, Şuvi kənd məscidi, İmam müavini |
| 32 | Aslanlı Ramil Zakir oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 33 | Mirzəyev Qəhrəman Şirinbəy oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 34 | Qurbanov Vüqar Ələddin oğlu | Zərdab şəhəri, "Cümə" məscidi, İmam |

davamı səh. 6

əvvəli səh. 5

| | | |
|---|---|---|
| 35 | Həşimov İslam Rəhman oğlu | Ağsu rayonu, Pirhəsənli kənd məscidi, İmam müavini |
| 36 | Balayev Röya Cəlil oğlu | Bərdə şəhər "Cümə" məscidi, İmam |
| 37 | Qulamov Asif Ərəstun oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 38 | Qəniyev Mirheydər Xəlil oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 39 | Məmmədyarov Hikmət Şünasi oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 40 | Məmmədov Nəbi Nərman oğlu | Sabunçu rayonu, Sabunçu qəsəbə məscidi, İmam müavini |
| 41 | Rüstəmov Rasəf Müsəf oğlu | İmişli şəhəri, "Məşədi Həbib" məscidi, İmam |
| 42 | Kərimov Seyid Kərim oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 43 | Əliyev Rüstəm Yusif oğlu | Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, "Heydər" məscidi, İmam |
| 44 | Tahirov Turab Əliqan oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 45 | Mərcanov Mərdalı Muxəmməd oğlu | İsmayıllı rayonu, Lahıc qəsəbəsi, "Bədöyün" məscidi, İmam müavini |
| 46 | Əlicanov Rahil Abdulbaği oğlu | İmişli şəhəri, "Məşədi Həbib" məscidi, İmam |
| 47 | Yunusov Şahbaz Mirxas oğlu | Cəlilabad şəhəri, "Şəhidlər" məscidi, İmam |
| 48 | Xurşidov Sobit Soliyeviç | Sabirabad rayonu, Qaragüney kənd "İmam Hüseyn" məscidi, İmam müavini |
| 49 | İbrahimov Rövşən İbrahim oğlu | Qax rayonu, Ləkit kənd "Cümə" məscidi, İmam müavini |
| 50 | Ömərov Xizri Şaban oğlu | Qax rayonu, Ləkit kənd "Cümə" məscidi, İmam müavini |
| 51 | İbrahimov Elçin Ramazan oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 52 | Həşimov Emin Tamil oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 53 | Ziyaddinov Ruslan Əşrəf oğlu | Quba rayonu, Digah kənd məscidi, İmam müavini |
| 54 | Talıbov İsmət Aqil oğlu | Zərdab şəhəri, "Cümə" məscidi, İmam |
| 55 | Əskərov Hafiz Adil oğlu | Lənkəran rayonu, Separadi kənd məscidi, İmam müavini |
| 56 | Ağalarov Laçın Səməd oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 57 | Səlimov Azər Ağamir oğlu | İmişli şəhəri, "Məşədi Həbib" məscidi, İmam |
| 58 | Qiyasov Natiq Saday oğlu | Sabirabad rayonu, Qaragüney kənd "İmam Hüseyn" məscidi, İmam müavini |
| 59 | Fərəczadə Seyran Akif oğlu | Bərdə şəhər "Cümə" məscidi, İmam |
| 60 | Yusibov Adil Qəzənfər oğlu | Yasamal rayonu, "Hacı Cavad" məscidi, İmam |
| 61 | Zülfüqarov Pərviz Çingiz oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 62 | Cəfərov Vüqar Eyyub oğlu | Xəzər rayonu, Zirə qəsəbəsi, "Cümə" məscidi, İmam |
| 63 | Musayev Bəhruz Elman oğlu | İmişli şəhəri, "Məşədi Həbib" məscidi, İmam |
| 64 | Verdiyev Məhəmməd Həsən oğlu | Qax rayonu, Ləkit kənd "Cümə" məscidi, İmam müavini |

**APELLYASİYA KOMİSSİYASINA MÜRACİƏT ETMƏK İSTƏYƏNLƏRİN NƏZƏRİNƏ!**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün cari ilin 13-24 fevral tarixlərində keçirilən müsahibənin nəticələri ilə bağlı Apellyasiya komissiyasına bu gündən etibarən 5 iş günü müddətində elektron qaydada (**sened@scwra.gov.az** elektron poçtuna) müraciət ünvanlaya bilərsiniz.

**Əlavə məlumat üçün:** (012) 497 02 53

# DQİDK NÜMAYƏNDƏSİ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB

6-7 fevral tarixlərində Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) regionunda antisemitizm ilə mübarizə mövzusunda konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev iştirak edib.

Üç sessiyadan ibarət olan konfransın açılış mərasimində Şimali Makedoniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani, ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun direktoru Matteo Mecacci, ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı Kayrat Abdurahmanov, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi, ravvin Endryu Beyker, eləcə də videoformatda ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi Teresa Ribeyro və Parlament Assambleyasının xüsusi nümayəndəsi, senator Ben Kardin çıxış ediblər.

Müzakirə formatında təşkil olunan sessiyalarda "ATƏT regionunda antisemitizm ilə mübarizə istiqamətində səylərə diqqətin yönəlməsi", "Antisemitizm ilə bağlı müasir təzahürlər: yeni çağırışlar və onların səmərəli həlli yolları" və "Gələcəyə baxış: süni intellekt dövründə antisemitizmin aradan qaldırılması" mövzularında müzakirələr aparılıb. ATƏT regionunun bir sıra ölkələrindən, o cümlədən ABŞ-dan antisemitizm sahəsində fəaliyyət göstərən qurumların təmsilçilərinin, mütəxəssislərin qatıldığı panel müzakirələrdə Dövlət Komitəsinin nümayəndəsi fəal iştirak edib.

Konfransın bağlanış sessiyasında iştirakçı ölkələrin nümayəndə heyətləri, o cümlədən Azərbaycan bəyanatla çıxış edib. Azərbaycan tərəfinin bəyanatını Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aytən Qəhrəman səsləndirib.




# DİNİ KONFESSİYA NÜMAYƏNDƏLƏRİ XOCALI SOYQIRIMI QURBANLARINI ANIBLAR



Azərbaycandakı müsəlman dini icmaları ilə yanaşı, qeyri-islam dini icmaları tərəfindən də Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib.

"Vineyard Azərbaycan" xristian dini icması, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Xilaskar Yevangelik-Lüteranların Bakı dini icması, "Həyat Sözü-2" Sumqayıt xristian dini icmasının nümayəndələri Xətai rayonunda yerləşən "Ana fəryadı" abidəsini ziyarət edib, abidənin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

***

Gəncə şəhər Yəhudi dini icması, Yeddinci Günün Adventistləri xristian dini icması, Sumqayıt şəhərində yerləşən "Alov kilsəsi" xristian dini icması, "Həyat Sözü-2" Sumqayıt xristian dini icması, "Sumqayıt Yəhudiləri" dini icması, eləcə də Qobustan rayon Hilmilli kənd "Molokan ruhani-xristian" dini icması tərəfindən anım mərasimləri təşkil edilib. Mərasimlərdə






Xocalı qurbanlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub.

***

Azərbaycan Alban-Udi xristian dini icmasının üzvləri Tərtər rayonunun Talış kəndi və Suqovuşan qəsəbəsində yerləşən alban kilsələrini ziyarət ediblər. Faciə qurbanlarının və şəhidlərimizin ruhlarına şamlar yandırılıb, dualar oxunub.

Qeyd edək ki, anım mərasimlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları da iştirak ediblər.

# "HƏR HANSI DİNİ KOLLECİN NƏZDİNDƏ YARADILMIŞ KURSU BİTİRƏN ŞƏXS DÖVLƏT KOMİTƏSİNİN ELAN ETDİYİ MÜSAHİBƏDƏ İŞTİRAK EDƏ BİLMƏYƏCƏK"

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimovanın "Report"a müsahibəsi***



**- Elnarə xanım, Dini təhsil şöbəsi Dövlət Komitəsində yeni yaradılıb və siz həmin şöbəyə müdir təyin edilmisiniz. Fürsətdən istifadə edərək sizi təbrik edir, işinizdə uğurlar arzulayırıq. Necə hesab edirsiniz, bu gün ölkədə dini təhsilin səviyyəsini qənaətbəxş hesab etmək olar?**

- Təşəkkür edirəm. Nəzərə alın ki, Azərbaycanda dini təhsilin mövcud vəziyyətini qiymətləndirmək baxımından mütləq tarixə nəzər salmalıyıq. Birincisi ondan başlamaq lazımdır ki, Azərbaycanda tarixən böyük dini təhsil ocaqları fəaliyyət göstərib. Çünki İslamın Azərbaycanda yayıldığı dövrdən ölkəmizdə dini təhsillə bağlı ənənələr formalaşıb. Düzdür, bu ənənələr çar Rusiyası dövründə yeni forma alıb, bu sahəyə müəyyən məhdudiyyətlər tətbiq edilib, amma dini təhsil sistemimiz sovet dövrünədək davam edib. Sovet dövründə din sahəsindəki məhdudiyyətlər, təbii ki dini təhsildən də yan keçməyib. Məscidlər, digər ibadət evləri bağlandığı, din xadimlərimiz repressiya qurbanı olduğu kimi, dini təhsil ocaqlarımız da respressiyaya məruz qalıb. Nəticədə 70 illik sovet dövründə Azərbaycanın əsrlər boyunca formalaşmış dini təhsil ənənələri qırılıb. Başqa sözlə, müstəqil Azərbaycanda dini təhsillə bağlı məsələlər demək olar ki, sıfırdan formalaşıb. Bu baxımdan dini təhsilin arzu edilən səviyyədə olmamasının əsas səbəbi sovet dövrü ilə əlaqəlidir. Sovet İttifaqı dağılanda dini təhsil sisteminin formalaşması üçün nə tədris, nə də kadr bazamız var idi. Bu da öz nəticəsini indiyənədək göstərməkdədir. Müsbət məqam kimi qeyd edim ki, müstəqillik dövründə ali dini təhsil sahəsində xeyli irəliləyişlərə nail olmuşuq. Belə ki, 1989-cu ildə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı İslam Mədrəsəsi yarandı, sonra o, Bakı İslam İnstitutuna, daha sonra Bakı İslam Universitetinə çevrildi. 1992-ci ildə Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi açıldı. 2018-ci ildə Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən, İlahiyyat fakültəsinin bazasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldıqdan sonra isə dini təhsil sahəsində yeni mərhələyə qədəm qoyuldu.

**- Bəs dini orta ixtisas təhsili, o cümlədən dini kolleclər barədə nə deyə bilərsiniz?**

- Dini orta ixtisas təhsili müəssisələrinə, yəni mədrəsələrə, İslam kolleclərinə gəlincə, Sovet İttifaqı dağıldıqdan sonra müəyyən mədrəsələr açıldı. Amma etiraf etmək lazımdır ki, müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycan cəmiyyətinə ideoloji baxımdan nüfuz etməyə çalışan xarici dini dairələr məscidlərə, ziyarətgahlara "əl uzatdıqları" kimi, dini təhsil müəssisələrinə də "əl uzatmışdılar". Ölkəmizdə həmin dairələr tərəfindən onlarla mədrəsə yaradılmışdı. Onların əksəriyyəti qanunsuz fəaliyyət göstərirdi. Həmin mədrəsələrdə xarici vətəndaşlar dərs keçirdilər və orada dini təhsil milli maraqlarımıza cavab vermirdi. Təxmini hesablarımıza görə, həmin mədrəsələrdə 1000-dən artıq gəncimiz təhsil alıb. Onların bir qismi təhsil aldıqdan sonra xarici ölkələrə gedib, orada təhsillərini davam etdirib geri qayıdıb. İddia etmirəm ki, onların hamısı yararsız kadrlardır. Lakin xaricdə dini təhsil almış vətəndaşlarımızın bəzi dini dairələr tərəfindən ideoloji təsirə məruz qaldıqları məlumdur. Hazırda ölkəmizdə 5 dini orta ixtisas təhsil müəssisəsi - Lənkəran İslam Kolleci, Şəki İslam Kolleci, Əliabad İslam Kolleci, Zaqatala İslam Kolleci və Şəbnəm (qızlar) İslam Kolleci fəaliyyət göstərir. "Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, dini təhsil müəssisələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçməklə yanaşı, Elm və Təhsil Nazirliyi tərəfindən verilən xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərməli və onlara qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmalıdır. Lakin Qafqaz Müsəlmanları İdarəsinin təsisçisi olduğu və Gənclərə Yardım Fondunun himayəsi altında fəaliyyət göstərən bu kolleclərin Elm və Təhsil Nazirliyindən (xüsusi razılıq) lisenziya almaları hələ də mümkün olmayıb və oraya qəbul da Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmir. Bütün bunlar isə o deməkdir ki, dini orta ixtisas təhsili məsələlərinin tənzimlənməsi baxımından hələ xeyli iş görməliyik.

**- Yeri gəlmişkən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hazırda məscidlərə din xadimlərinin təyinatı ilə bağlı müsahibə keçirir. Bu barədə məlumat verməyinizi xahiş edərdik.**

- Ötən ilin fevral ayında "Dini etiqad azadlığı haqqında" Qanuna edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli məqsədilə Dövlət Komitəsi tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanıb və bu qaydaya əsasən Dövlət Komitəsi İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün müsahibələr keçirir. İlk müsahibə keçən il təşkil olunub. Bu il ilk dəfə qadınlar üçün "dini ayinlərin icraçısı" vəzifəsi də müsahibəyə çıxarılıb. Qadın dini ayinlərin icraçısı – imamın tapşırığına əsasən İslam dininə aid ibadət yerlərində və ziyarətgahlarda dini ayinlərin icrasını həyata keçirən şəxsdir. Həmçinin qadın dini ayinlərin icraçısı imamın tapşırığına əsasən yas mərasimlərində dini ayinlərin icrasını həyata keçirəcək. Yəni, qadınlar imam olmayacaq. 7 vakant yerə 71 qadın namizəd öz sənədlərini təqdim edib, onlardan 16-sı müsahibədə uğur qazanıb və müsahibə yekunlaşdıqdan sonra məscidlərə təyinat alacaqlar.

**- Elnarə xanım, müsahibələrdə xüsusilə diqqət edilən məqamlar nələrdir?**

- Biz dini təhsil məsələsinə çox həssas yanaşırıq. Qanuna əsasən, din xadimi olmaq üçün dini ali və orta ixtisas təhsili şərtdir. Deməli, təhsilsiz şəxslər ixtisaslı kadrlarla əvəz edilməlidirlər. Keçirdiyimiz müsahibələr zamanı namizədlərin sənədlərini qəbul edərkən onların diplomlarına xüsusi əhəmiyyət vermişik. Bu zaman xeyli "fərqli diplomlarla" qarşılaşmışıq. Belə məlum olur ki, 2001-ci ildən əvvəl qeydiyyatdan keçməmiş və qanunsuz fəaliyyət göstərən "mədrəsələr", "kurslar" varmış və onlar faktiki olaraq müəyyən şəxslərə "diplom" verməklə məşğul imiş. Biz bu diplomları qəbul etməmişik, edə də bilmərik. Biz yalnız o mədrəsələrin diplomlarını qəbul etmişik ki, onlar vaxtilə ya Ədliyyə Nazirliyində, ya da sonralar Dövlət Komitəsində qeydiyyatdan keçiblər. Ümumiyyətlə, müsahibəyə müraciət edənlər arasında Bakı İslam Universiteti, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi, Azərbaycan İlahiyyat İnstitutu və İslam Kolleclərinin məzunları üstünlük təşkil etmişlər.

**- Xaricdə dini təhsil alanların diplomlarını tanıyırsınızmı, onlar da müsahibəyə qatıla bilərlərmi?**

- Əlbəttə, xaricdə dini ali və orta ixtisas təhsili almış şəxslərin diplomları qəbul olunur. Sənəd qəbulunda onlar iştirak edirlər. Xaricdə dini təhsil almaqla bağlı qanunvericiliyin müəyyən tələbləri var. Həmin tələblərdən biri də ondan ibarətdir ki, gənclər xaricdə dini təhsil almağa yalnız Dövlət Komitəsinin razılığı ilə dini mərkəz tərəfindən göndərilə bilərlər. İş ondadır ki, son 20 il ərzində Dövlət Komitəsinə belə bir müraciət daxil olmayıb. Ümumiyyətlə, xaricdə dini təhsil alanların diplomları ilə bağlı məsələ çox ciddidir. Nəzərdə tutulur ki, bu şəxslərin diplomlarının tanınması üçün mexanizmlər hazırlansın.

**- Dediklərinizdən belə nəticəyə gəlmək olarmı ki, diplomu olmayanlar məscidlərdən uzaqlaşdırılacaqlar?**

- Bu prosesə artıq başlanılıb. Desək ki, dini təhsili olmayan şəxslərin hamısını bir günün içərisində tutduqları vəzifədən azad edə bilərik və ya azad etməliyik - doğru olmaz. Çünki bu elə bir prosesdir ki, mərhələ-mərhələ həyata keçirilməlidir. Ötən ildən proses başlayıb və dini təhsili olmayan şəxslər mərhələli şəkildə ixtisaslı kadrlarla əvəz olunur. Keçən il cəmi bir müsahibə keçirilib və həmin müsahibədən uğurla keçən dini ali və orta ixtisas təhsili 133 nəfərdən 100-ə yaxını din xadimi kimi məscidlərə təyinat alıb. Bu o deməkdir ki, onlar ya din xadimi olmayan məscidlərə təyinat alıblar, ya da dini təhsili olmayan şəxslərin çalışdığı məscidlərə təyin ediliblər. Düşünürəm ki, bu prosesi planlaşdırdığımız müddətdə uğurla başa çatdıra biləcəyik.

**- Bəs Dövlət Komitəsində qeydiyyatdan keçmiş dini kolleclərin və ya dini icmaların yaratdığı kursları bitirən şəxslərin diplomları tanına bilərmi?**

- Bəri başdan deyim ki, bu mümkün deyil. Birincisi, ali və orta ixtisas təhsilinin hüquqi meyarları var. İslam kolleclərinin nizamnamələrinə diqqət yetirsəniz, görəcəksiniz ki, orda təhsil müddətinin 4 il olduğu qeyd olunub. Deməli, kolleclərin verdiyi təhsilin müddəti 4 il olmalıdır və bu, diplomlarda öz əksini tapmalıdır. Əgər kimsə həmin kolleclərin nəzdində fəaliyyət göstərən kursları 3 il, 2 il və ya 1 il oxuduqlarına dair hansısa sənəd təqdim edəcəksə, təbii ki, onu qəbul edə bilməyəcəyik. Bir daha xüsusi olaraq bildirmək istəyirəm ki, hər hansı dini kollecin nəzdində yaradılmış kursu bitirən şəxs Dövlət Komitəsinin elan etdiyi müsahibədə iştirak edə bilməyəcək. Bütün hallarda ali dini təhsil yalnız Azərbaycan İlahiyyat İnstitutunda, orta ixtisas təhsili isə kolleclərdə həyata keçirilir və təhsil müddəti 4 ildir. Onu da xüsusilə qeyd etmək istəyirəm ki, Azərbaycanda hazırda qiyabi dini təhsil yoxdur. Yəni kimsə hansısa kollecdə qiyabi təhsil aldığına dair sənədlə gələrsə, onu da qəbul etməyəcəyik. Hazırda dini təhsil sahəsində qarşımıza qoyduğumuz prinsipial məqamlardan biri də ondan ibarətdir ki, dini təhsil qiyabi və ödənişli ola bilməz. Məsələn, Azərbaycan İlahiyyat İnstitutunda təhsil ödənişsizdir və burada qiyabi təhsil yoxdur. Onu da qeyd edim ki, Bakı İslam Universiteti uzun illər fəaliyyət göstərib və buradan məzun olmuş şəxslər bu gün dini sahədə çalışırlar. Amma bu universitet ödənişli olduğuna görə imkansız ailələrdən olan gənclər burada təhsil ala bilmirdilər. Nəticədə xarici ölkələrə üz tutmaq məcburiyyətində qalırdılar. Eyni zamanda, Bakı İslam Universitetində, onun Lənkəran, Mingəçevir, Sumqayıt filiallarında qiyabi təhsil mövcud idi. Bu gün onların məzunlarının bilik səviyyəsinə baxdıqda görürük ki, əyani təhsil alanlarla qiyabi təhsil alanların arasında ciddi fərq var.

**- Dini təhsillə bağlı başqa prioritetləriniz də var?**

- Dini təhsillə bağlı prioritetlərimizi Azərbaycan İlahiyyat İnstitutunun timsalında görmək olar. Məsələn, təəssüf ki, Azərbaycanda dini təhsil indiyədək məzhəbyönümlü olub. Azərbaycan İlahiyyat İnstitutunda isə məzhəbüstü təhsil verilir. Yəni burada bütün məzhəblər tələbələrə eyni dərəcədə öyrədilir. İnstitutda iki istiqamət - Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə tədris həyata keçirilir. Dinşünaslıq ixtisasında İslamla yanaşı, dünyada mövcud olan digər böyük dinlər haqqında, xüsusilə, Yəhudilik və Xristianlıq barədə deskriptiv bilgiləri ehtiva edən fənlər də tədris olunur. İslamşünaslıq istiqamətində isə daha çox İslamı müxtəlif aspektlərdən öyrənən fənlər tədris olunur və bu ixtisası bitirənlər din xadimi kimi fəaliyyət göstərməyə hazır olurlar. Eyni zamanda, institutda hər iki istiqamət üzrə kifayət qədər dünyəvi elmlər tədris edilir. Tələbələrə dinlər teoloji aspektlə yanaşı, fəlsəfi, tarixi, sosio-psixoloji istiqamətlərdən də öyrədilir və beləliklə, dünyəvi cəmiyyətdə dini insanlara çatdırmağı bacaran, həmçinin, milli köklərimizə bağlı olan mütəxəssislər hazırlamağa səy göstərilir. İnstitutda kifayət qədər savadlı elm adamları tədrislə məşğul olur. Əksər müəllimlər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilirlər. "Web of science" və "Scopus" bazaları da daxil olmaqla, bir çox beynəlxalq akademik bazalarda indeksləşən elmi jurnallarda müəllimlərin məqalələri dərc olunur. Bu da instituta imkan verir ki, dini təhsil sahəsində dünyanın başqa ölkələrində təhsil alanlarla müsbət mənada rəqabət aparmağı bacaran kadrlar hazırlasın. Ümid edirəm ki, biz dini ali təhsil sahəsində olduğu kimi, orta ixtisas təhsili sahəsində də eyni prinsipləri tətbiq edə biləcəyik.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ XOCALI SOYQIRIMI İLƏ ƏLAQƏDAR DÜNYA İCTİMAİYYƏTİNƏ MÜRACİƏT EDİB

### *Dünya dini liderlərinə, beynəlxalq təşkilatlara, parlamentlərə və dünya ictimaiyyətinə müraciət:*

Biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri, XX əsrin qanlı faciələrindən olan Xocalı soyqırımının 31-ci ildönümü ərəfəsində bu müraciətimizi nəzər-diqqətinizə çatdırırıq.

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı dinc mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərin ən dəhşətlisidir. Bu qətliamdan bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Xocavənd rayonunun Qaradağlı kəndində yerli azərbaycanlı əhalini kütləvi qırğına məruz qoyub və öz cinayətlərini misli görünməmiş qəddarlıqla davam etdirərək fevralın 25-dən 26-na keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində soyqırımı törədiblər. Ağır hərbi texnikanın tətbiqi ilə davam edən qırğınlar nəticəsində Xocalı şəhəri tamamilə dağıdılaraq yerlə-yeksan edilib, 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfər azərbaycanlı öz milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. Ağlasığmaz qəddarlıqla 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Azğınlaşmış ekstremistlər insanların başlarının dərisini soyub, müxtəlif əzalarını kəsib, körpə uşaqların gözlərini çıxarıb, hamilə qadınların qarınlarını yarıb, insanları diri-diri torpağa basdırıb və ya yandırıb, meyitlərin üzərində vəhşicəsinə həqarətlər edib, bir qismini minalayıblar. Şaxtalı hava şəraitində əli-ayağı yalın qaçıb xilas olmaq istəyən mülki əhaliyə belə aman verilməyib, onlar təqib edilərək yollarda, meşələrdə erməni hərbi birləşmələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirilib. Bu bəşəri cinayət nəticəsində 487 dinc sakin ağır yaralar nəticəsində əlil olub, 1275 nəfər girov götürülən vətəndaşlardan 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil.

Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi əsassız ərazi iddiaları və təcavüzkar siyasəti nəticəsində Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın işğal altında saxlanılıb, Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti, fiziki və mənəvi terror həyata keçirilib, bir milyondan çox insan Ermənistandakı və Azərbaycanın Qarabağ bölgəsindəki ata-baba torpaqlarından qovularaq qaçqın və məcburi köçkün məşəqqətini yaşamağa vadar edilib, onların insan hüquqları kobud şəkildə pozulub, yüzlərlə şəhər və kənd, Azərbaycan xalqının qədim və zəngin mədəni irsi dağıdılaraq talan edilib.

2020-ci ilin yay aylarından etibarən Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribata başlayaraq "yeni torpaqlar naminə yeni müharibə" şüarı ilə Azərbaycanın müxtəlif bölgələrinə, dinc əhali və mülki infrastruktura qarşı ağır artilleriyadan istifadə etməklə işğal ərazisini genişləndirməyə cəhd göstərdi. Öz hərbi cinayətlərini və vandalizm aktlarını davam etdirən təcavüzkar erməni rejimi Ermənistan-Azərbaycan sərhədində və hərbi əməliyyatlar zonasından uzaqda yerləşən yaşayış məntəqələrimizi, o cümlədən, Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ kimi iri şəhərləri və hətta paytaxt Bakıya yaxın əraziləri ağır artilleriya, ballistik raketlər, fosforlu və kasetli bombalarla atəşə tutdu. Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq başlayan şanlı Vətən müharibəsində Azərbaycan beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinə uyğun olaraq əzəli torpaqlarını 30 illik işğaldan qurtardı, dünya birliyi tərəfindən tanınan sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Dünya ictimaiyyətinin diqqətinə çatdırmaq istəyirik ki, Ermənistan işğalçılıq, etnik təmizləmə və soyqırımı siyasəti ilə yanaşı, həm də 30 illik işğal zamanı Azərbaycanın dini-mədəni və tarixi irsinə qarşı hərbi cinayətlər və vandalizm aktları həyata keçirib. Həmin ərazilərdə yerləşən məscidlər və digər dini məbədlər, qəbiristanlıqlar erməni vandalizminə məruz qalıb, rus pravoslav və qədim Alban xristian kilsələrinin mənşəyinin dəyişdirilməsi siyasəti həyata keçirilib. Bölgədə işğaldan əvvəl rəsmi qeydiyyatda olmuş 67 məsciddən 65-i erməni ekstremistləri tərəfindən tamamilə dağıdılıb, məscidlər tövləyə çevrilib, hətta orada İslamda haram buyurulan heyvanları saxlayaraq bütün İslam aləminin heysiyyətini açıq-aşkar təhqir ediblər. İşğaldan azad edilmiş ərazilərimizə müşahidəçi missiyası ilə gələn xarici qonaqlar bu yerləri "Qafqazın Xirosiması", "ruhlar şəhəri" adlandırırlar.

İşğalçılar Azərbaycan torpaqlarını tərk edərkən həmin ərazilərdə "yandırılmış torpaq" siyasəti tətbiq edib, minlərlə mina yerləşdiriblər. Ermənistan beynəlxalq hüquqa və humanitar prinsiplərə açıq-aşkar etinasızlıq göstərərək mina xəritələrini verməkdən yayınır və ya həqiqətə uyğun olmayan saxta xəritələr təqdim edir. Müharibədən sonra erməni dini liderləri revanşist bəyanatlarla öz xalqını region üçün son dərəcə zəruri olan sülhə deyil, yeni müharibəyə çağırırlar. Ermənistan siyasi və dini dairələri beynəlxalq qurumlara və dini təşkilatlara müraciət edərək işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın guya xristian abidələrini məhv etməsi barədə yalançı və böhtan xarakterli dezinformasiyalar yayır, Qarabağda Ermənistanın törətdiyi vandalizmdən diqqəti yayındırmaq məqsədilə əsl həqiqətləri pərdələməyə çalışırlar.

Biz, dini konfessiya rəhbərləri bildiririk ki, fəaliyyət göstərdiyimiz Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir və bütün dinlər dövlət tərəfindən bərabər hüquqlarla təmin olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə iştirakı və himayəsi ilə hazırda Qarabağ torpaqları dirçəldilir və yenidən qurulur, o cümlədən Ermənistan tərəfindən dağıdılmış və talan edilmiş zəngin mədəni-tarixi irsin, eyni zamanda, müsəlman və xristian məbədlərinin bərpası yönündə işlər aparılır. Biz beynəlxalq və dini təşkilatları Azərbaycanda mövcud nümunəvi tolerantlıq, multikulturalizm mühiti ilə, işğaldan azad edilmiş ərazilərdə real vəziyyətlə tanış olmağa, o cümlədən mədəni və dini abidələrimizə qarşı erməni vandalizminin nəticələrini öz gözləri ilə görərək bu qeyri-insani əməllərə obyektiv qiymət verməyə dəvət edirik.

Təəssüflə qeyd edirik ki, dünyada baş verən kütləvi zorakılıq hallarının, ekstremizmin və terror cinayətlərinin vaxtında hüquqi-siyasi qiymət almamasının arxasında bəzi siyasət və din xadimlərinin, dövlətlərin, təşkilatların həmin problemlərə münasibətindəki ikili standartlar, dini və irqi ayrı-seçkilik kimi təhlükəli meyillər dayanır. Azərbaycan xalqı heç vaxt Xocalı faciəsini unutmayacaq. Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilib, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət alıb. Xocalıda törədilmiş qətliam bir sıra ölkələr və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınıb və faciəyə beynəlxalq siyasi qiymət verilib. Biz bütün tərəqqipərvər ictimaiyyətə müraciət edərək Xocalı soyqırımına biganə qalmamağa və bu dəhşətli faciəni törədənləri təqsirli bilərək onların mühakimə olunması üçün öz səslərini ucaltmağa çağırırıq.

Təəssüflə qeyd olunmalıdır ki, 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Vətən müharibəsindən sonra imzaladıqları üçtərəfli Bəyanatın müddəalarına Ermənistanın və ona himayədarlıq edən bəzi ölkələrin siyasi dairələri, Azərbaycanın Qarabağ bölgəsində yaşayan aqressiv separatçı qüvvələr, xüsusilə də Eçmiədzin və Kilikiya kilsələri tərəfindən etinasızlıq nümayiş etdirilir, revanşizm ideologiyası təşviq olunur, anti-Azərbaycan təbliğatı aparılır. İşğala son qoyaraq tarixi ədaləti, beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edən Azərbaycan hazırda bölgənin, o cümlədən, Ermənistanın da rifahına xidmət edə biləcək iqtisadi layihələrlə çıxış edir. Görünür ki, göstərilən siyasi və dini dairələr Ermənistanın, erməni xalqının mənafeyini sülh və iqtisadi inkişafda deyil, yenidən işğalçı müharibədə görür. Azərbaycanlı və erməni analarının müharibədə həlak olmuş və itkin düşmüş övladları üçün göz yaşları və fəryadları önündə din xadimlərinin yeni müharibələrə, nifrətə, işğalçılığa, separatçılığa səsləyən bəyanatlarına, irqçi çağırışlarına dünya ictimaiyyəti göz yummamalıdır.

Azərbaycandakı dini konfessiyalar regionumuzda hər hansı hərbi aqressiyaya, müharibə və nifrət çağırışlarına, dini və etnik dözümsüzlüyə, revanşizm meyillərinə son qoyulmasına, dövlətlər və xalqlar arasında mehriban qonşuluğun, sülhün və əmin-amanlığın bərqərar edilməsinə tərəfdar olduğunu bəyan edir. Biz bir daha dünya dini liderlərini, beynəlxalq təşkilatları, parlamentləri və dünya ictimaiyyətini bu uca məqsədlər naminə birgə səylər göstərməyə, xüsusilə də erməni apostol kilsəsini bəşəri dəyərləri, sülh və barışıq ideallarını təbliğ etməyə dəvət edirik.

Qoy Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun. Amin!

**Şeyxülislam Allahşükür Paşazadə,**
Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Arximandrit Aleksiy,**
Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi

**Milix Yevdayev,**
Dağ Yəhudiləri İcmasının rəhbəri

**Robert Mobili,**
Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri

**Aleksandr Şarovski,**
Azərbaycandakı Avropa Yəhudiləri İcmasının rəhbəri

# QURANIN YANDIRILMASI ÜÇÜN PLANLAŞDIRILAN AKSİYAYA İCAZƏ VERİLMƏYİB

İsveç polisi Quranın yandırılması üçün planlaşdırılan növbəti aksiyanın keçirilməsinə icazə verməyib.

Bu dəfə Stokholmdakı İraq səfirliyi qarşısında nəzərdə tutulan aksiyanın keçirilməsi üçün müraciət edən, adı gizli saxlanılan təşkilat rədd cavabı alıb. Yerli asayiş keşikçiləri öz qərarlarını Quranın yandırılmasının İsveçə qarşı terror aktlarına səbəb ola bilməsi riski ilə əsaslandırıblar.

"İsveç Təhlükəsizlik Polisinin (SAPO) qənaətinə əsasən, ölkə ərazisində Quran yandırma aksiyalarının artımı qısa müddət ərzində İsveçə və İsveçin maraqlarına qarşı hücum təhlükəsinin çoxalmasına səbəb ola bilər", - deyə ölkə polisinin qərarında bildirilib.

Qeyd edək ki, bu, Stokholmda cari ay ərzində bu tip aksiyalara icazənin verilmədiyi ikinci haldır. Quranın daha əvvəl radikal sağçı antimüsəlman siyasətçi Rasmus Paludan tərəfindən Stokholmdakı Türkiyə səfirliyinin qarşısında yandırılması beynəlxalq səviyyədə kəskin reaksiyalara səbəb olmuş və nəticədə, İsveçə qarşı təhdidlərin artmasına gətirib çıxarmışdı.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abışov Elnur Şaiq oğlu



Vətən müharibəsində mərdliklə döyüşərək şəhidlik məqamına yüksələn qəhrəman oğullarımızdan biri də şəhid Abışov Elnur Şaiq oğludur. Elnur 1997-ci il sentyabr ayının 1-də Kürdəmir rayonunun Qarasu kəndində dünyaya gəlib. O, 2003-cü ildə Elşad Qurbanov adına Qarasu kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2015-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Kürdəmir rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Silahlı Qüvvələrin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. O, düşmənlə üzbəüz səngərlərdə şücaəti, qətiyyəti, Vətən sevgisi ilə xidmət edib, ayıq-sayıq döyüş növbətçiliyi aparıb. Elnur 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olub, Lələtəpə yüksəkliyi istiqamətində gedən döyüşlərdə göstərdiyi igidliklərlə hər kəsin rəğbətini qazanıb, fəxri fərman və təşəkkürnamələrə layiq görülüb. 2017-ci ilin aprelində hərbi xidmətini uğurla başa vurub qayıtdıqdan sonra bir müddət diş texniki kimi çalışıb.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxu kimi Elnura da təsir etmiş, onun gələcəklə bağlı planlarının dəyişməsinə gətirib çıxarmışdı. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-yə müraciət edib və müvafiq formada qeydiyyata alınıb. Həmin vaxt müddətdən artıq xidmət etmək üçün kurs təşkil olunduğunu eşidən Elnur sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu keçib avqustun 25-də Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı motoatıcı hərbi hissəsində xidmətə başlayıb. Hərbi qulluğunun ilk iki həftəsini təlimlərdə iştirak edib, orada verilən tapşırıqların öhdəsindən uğurla gəlib.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan ilk gündən Elnur Tərtər istiqamətindən hərbi əməliyyatlara qatılıb. Suqovuşan və Talış kəndi uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıqla iştirak edib. Qəhrəmanımız oktyabrın 6-də düşmənlə üzbəüz döyüş zamanı başından güllə yarası alaraq şəhid olub. O, oktyabrın 7-də Qarasu kəndində dəfn edilib.

Elnur subay idi. Ailədə üç qardaş idilər.

Qəhrəmanlığı və qorxmazlığı ilə seçilən əsgər Abışov Elnur Şaiq oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abışov Əmrah Səyyab oğlu



Şəhid Abışov Əmrah Səyyab oğlu 1999-cu il noyabrın 15-də Ağcabədi rayonunun Kürdlər kəndində doğulub. Əmrah 2006-cı ildə Akif Sultanov adına Kürdlər kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub. Uşaqlıqdan çalışqan olan Əmrah həmişə 1-ci olmağa həvəs göstərib, o, iti zəkası, dərin hafizəsi, xüsusi qabiliyyətləri ilə həmyaşıdlarından seçilib. Sinif yoldaşları ilə nəzakətli davranışı Əmrahı hamıya sevdirib. 2017-ci ildə 11-ci sinifi bitirən qəhrəmanımız 2018-ci ilin yanvar ayında SHXÇDX-nin Ağcabədi rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, Silahlı Qüvvələrin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Əmrah hərbi xidməti ərzində nümunəvi əsgər kimi komandir və əsgər yoldaşlarının böyük hörmətini qazanıb. 2019-cu ilin iyul ayında müddətli hərbi xidmətini başa vuraraq sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Silahlı Qüvvələrin Şəmkir rayonunda yerləşən "N" saylı hərbi hissəsində kursu uğurla bitirərək 2020-ci ilin yanvar ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. "N" saylı hərbi hissənin kəşfiyyatçısı olan Əmrah 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində xüsusi fədakarlığı ilə seçilib. O, döyüşlərə Füzuli rayonunun Alxanlı kəndi istiqamətindən başlayıb. Düşmənin illərdir keçilməzliyi ilə öyündüyü "müdafiə" xəttinin yarılmasında igidliyi və qorxmazlığı ilə seçilən qəhrəmanımız Qaraxanbəyli kəndinin işğaldan azad edilməsində iştirak edib. O, oktyabrın 14-də döyüş meydanında yaralanan komandirini xilas edərkən qəhrəmancasına şəhid olub. Lakin şəhidimizin nəşini döyüş meydanından həmin gün çıxarmaq mümkün olmayıb. Əmrah oktyabrın 30-da Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhidimiz subay idi, onun bir qardaşı var.

İgidliyi ilə fərqlənən qəhrəmanımız əsgər Abışov Əmrah Səyyab oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

## Abışov Zəka Zakir oğlu



Şəhid Abışov Zəka Zakir oğlu 2001-ci il martın 19-da Yardımlı rayonunun Gilar kəndində anadan olub. Zəka ailəsi ilə birlikdə Bakı şəhəri, Qaradağ rayonu Qızıldaş qəsəbəsində yaşayıb. O, ibtidai təhsilinə 2007-ci ildə Azər Namazov adına 180 saylı tam orta məktəbdə başlayıb. Uşaq yaşlarından idmana maraq göstərib və karate ilə məşğul olub. 2016-cı ildə orta təhsilini başa vuran qəhrəmanımız 8 saylı peşə məktəbinə "İnşaat qəlibçisi" ixtisası üzrə qəbul olub. 2019-cu ildə peşə təhsilini uğurla başa vuran Zəka Abışov həmin ilin oktyabr ayında SHXÇDX-nin Yardımlı rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Əsgər Abışov daim öz üzərində işləyib, fiziki və döyüş hazırlığını inkişaf etdirib.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılan qəhrəmanımızın tabeliyində olduğu hərbi hissənin döyüş yolu Füzulidən başlayıb. O, düşmənin illərdir qurduğu sədlərin yarılmasında, eləcə də ərazilərimizin işğaldan azad edilməsində fədakarlığı ilə seçilib. Cəsur döyüşçümüz oktaybrın 21-də Şuşa istiqamətində gedən döyüşlərdə, Xocavənd rayonu ərazisində şəhid olub.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abışov Zəka Zakir oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2022

## DƏMƏŞQ

Təxminən e.ə III minillikdə əsası qoyulan Dəməşq Şərqlə Qərbin kəsişməsində yerləşən coğrafi mövqeyinə görə tarixən mühüm mədəniyyət və ticarət mərkəzi olmuşdur. O, dünyanın ən qədim insanların davamlı olaraq məskunlaşdıqları şəhərlərindən biri hesab olunur. Şəhərin kənarında, təxminən 20 km cənub-qərbdəki Hermon dağının ətəyində yerləşən Tell Ramad adlanan ərazidə aparılan qazıntılar zamanı əldə edilmiş maddi sübutlar burada e.ə IX-XI minilliklərdə yaşayışın olduğunu göstərir. Dəməşqin adı ilk dəfə tarixi qaynaqlarda Aramilərin bölgəyə hakim olduğu illərdə çəkilir. Şəhər e.ə XI əsrdən başlayaraq Arami krallığının paytaxtı olmuşdur. Sonrakı illərdə İsrail və Yəhuda krallıqları arasında baş vermiş toqquşmalar zamanı Yəhuda padşahının Assurluları köməyə çağırması ilə e.ə 732-ci ildə şəhər Assur hökmdarı III Tiqlatpalasar tərəfində ələ keçirilmişdir. E.ə 572-ci ildə şəhəri Babil hökmdarı Navuxodonosor işğal etmişdir. Babillərin hökmranlığına isə e.ə 538-ci ildə II Kir son qoyaraq şəhəri və Suriyanın fars vilayətinin paytaxtına çevirmişdir.



Dəməşq ilk dəfə Makedoniyalı İskəndərin Yaxın Şərqi yürüşü zamanı qərbin nəzarətinə keçdi. E.ə 323-cü ildə İskəndərin ölümündən sonra Dəməşq Selevkilər və Ptolemeylər sülaləsi arasında mübarizə meydanına çevrilmişdir. İskəndərin sərkərdələrindən I Selevk Nikator Antakyanı öz imperiyasının paytaxtı etdi və bu, şimalda Latakiya kimi yeni qurulan Selevki şəhərləri ilə müqayisədə Dəməşqin əhəmiyyətinin azalmasına səbəb oldu.

E.ə 64-cü ildə Pompeyin hücumu nəticəsində Suriyanın qərb hissəsi romalıların nəzarətinə keçdi. Onlar Dəməşqi işğal etdilər və sonra onu Dekapolis kimi tanınan on şəhər liqasına daxil etdilər. Dəməşq və ümumilikdə Suriya Roma əyaləti kimi bu dövrdə çiçəklənməyə başladı. Günümüzdə şəhərin qədim hissəsində tam şəkildə qalmasa da, romalılara məxsus bir neçə tarixi abidə mövcuddur.

İslam fəthlərindən əvvəl Bizans hakimiyyəti altında olan şəhər 613-cü ildə Sasanilər tərəfindən işğal edilmiş, lakin 628-ci ildə geri alınmışdı. 634-cü ildə xəlifə I Ömərin fəthi ilə Dəməşq müsəlman şəhərinə çevrilmişdir. Əməvi sülaləsinin hakimiyyəti dövründə şəhərin paytaxt seçilməsi ilə şəhərin gücü və nüfuzu ən yüksək həddə çatmışdı. 744-cü ildə sonuncu Əməvi xəlifəsi II Mərvan paytaxtı Harrana köçürdü və Dəməşq heç vaxt o dövrdə tutduğu siyasi nüfuzunu geri qaytara bilmədi.

Əməvilərin süqutundan və 750-ci ildə Abbasi xilafətinin qurulmasından sonra Dəməşq Bağdaddan idarə olundu. Abbasi xilafətinin tənəzzülü ilə Dəməşqdə hökm sürən qeyri-sabitlik yerli sülalələrin şəhəri idarə etməsi ilə nəticələndi. 875-ci ildə Misir hökmdarı Əhməd ibn Tulun şəhəri ələ keçirdi, 905-ci ildə yenidən Abbasilərin nəzarəti bərpa olundu. 945-ci ildə Həmdanilər Dəməşqi aldılar və çox keçmədi ki, şəhər Ağşidlər dövlətinin qurucusu Məhəmməd ibn Tuğacın əlinə keçdi. 968-ci və 971-ci illərdə şəhər qısa müddətə Qərmətilərin nəzarətində olmuşdur. 970-ci ildə Qahirədə olan Fatimi xəlifələri Dəməşqə nəzarəti ələ keçirdilər.

XI əsrin sonlarında Səlcuqların gəlişi ilə Dəməşq yenidən müstəqil dövlətlərin paytaxtı oldu. 1079-1104-cü illərdə Səlcuqlar, sonra isə başqa bir türk sülaləsi - 1148-ci ildə İkinci Səlib yürüşü zamanı şəhərin mühasirəsinə tab gətirən Burid əmirləri tərəfindən idarə olundu. 1154-cü ildə Dəməşq məşhur Nurəddin Mahmud Zəngi tərəfindən işğal edildi. Nurəddin Zənginin ölümündən dərhal sonra Səlahəddin Əyyubi qoşunla Dəməşqə doğru irəlilədi və şəhər aliləri tərəfindən qarşılandı. Öz hakimiyyətini möhkəmləndirmək üçün Səlahəddin Nurəddin Zənginin dul qalmış arvadı ilə evləndi, Nürəddin Zənginin hakimiyyəti altında olan Dəməşq və bir neçə şəhər Əyyubilər tərəfindən idarə olunmağa başlandı. Səlahəddinin dövründə şəhər qalası yenidən tikildi və şəhərətrafı ərazilərdə də canlanma baş verdi. Bəzi tarixçilərə görə, Səlahəddinin dövründə buraya dünyanın müxtəlif ölkələrindən alimlər dəvət olunur, təhsil ocaqları yaradılırdı.

Əyyubilərin hakimiyyəti 1260-cı ildə monqolların Suriyaya hücumu ilə sona çatdı və Dəməşq monqolların geri çəkilməsindən sonra Misirdən idarə olunan Məmlük imperiyasının əyalət paytaxtı oldu.

1400-cü ildə Əmr Teymur Dəməşqi mühasirəyə aldı. Hücum nəticəsində şəhər xarabalığa çevrildi, əksər sənətkarlar Səmərqəndə aparıldı. Yenidən qurulan Dəməşq 1516-cı ilə qədər Məmlük dövlətinin əyalət mərkəzi oldu.

1516-cı ilin əvvəllərində Osmanlılar Məmlüklərlə Səfəvilər arasında ittifaq təhlükəsindən ehtiyat edərək Məmlük sultanlığına qarşı hücuma başlayır. Sentyabrın 21-də Dəməşqin məmlük valisi şəhərdən qaçır, oktyabrın 2-də Əməvi məscidində xütbə I Səlimin adına oxunur. Ertəsi gün isə Dəməşq Osmanlıların mülkünə çevrilir. Misiri ələ keçirmək istəyən I Səlim üç ay burda qaldıqdan sonra şəhəri tərk edir. Bundan sonra şəhər 400 il Osmanlıların hakimiyyətində qalır.

Məlum olduğu kimi, tarixin müxtəlif dövrlərində bir çox dövlətin hakimiyyətində xüsusilə paytaxt olan Dəməşqdə hər dövrə və hər dövlətə aid memarlıq abidələrini görmək olar. Yaxın Şərqin mühüm strateji şəhəri olan Dəməşq həmişə sənətkarlıq və elm mərkəzi olmuşdur. 125-ə yaxın tarixi abidəsi olan qədim Dəməşq 1979-cu ildə YUNESKO Ümumdünya İrsi siyahısına daxil edilib.

Dəməşq abidələri içində dünyaca məşhur olanı Əməvilər dövründə tikilən dünyanın ən qədim və ən böyük məscidlərindən biri Əməvi məscididir. 634-cü ildə ərəblərin Dəməşqi tutmasından sonra Roma imperatoru I Konstantinin dövründən qalan, Vəftizçi İohann şərəfinə inşa edilən bazilika 635-ci ilə Əbu Ubeyd ibn Cərrah tərəfindən bəzi əlavələr edilərək məscidə çevrildi. Yetmiş il ərzində həm kilsə, həm də məscid kimi fəaliyyət göstərmiş bina müsəlmanların sayının çoxalması ilə tamamilə məscidə çevrildi. Məscid kiçik olduğu üçün Əməvi xəlifəsi I Valid tərəfindən bugünkü böyük məscidin tikintisinə başlandı. İnşaatda xəlifənin istəyi ilə Bizans imperatorunun İstanbuldan göndərdiyi ustalar çalışmışdı. Məscidin inşası 714-cü ildə tamamlanmışdı.

Orijinal görünüşü ilə bu günə qədər öz gözəlliyini saxlayan Əməvi məscidi özündən sonra tikilən bütün məscidlərin memarlığına ilham vermiş binadır. Məscidin şimal divarına əlavə edilən kiçik bağçada Səlahəddin Əyyubinin türbəsi var. Onun bitki və həndəsi motivləri, şəhər və bina təsvirlərindən meydana gələn möhtəşəm mozaik bəzəkləri də memarlıq sənətinin tarixi üçün əhəmiyyətlidir. Məscidin başqa bir xüsusiyyəti isə İslam aləmində ilk dəfə ümumi ayaqyolunun burada tikilməsidir.

Dəməşqin memarlığını bəzəyən daha bir abidə Nurəddin türbəsidir. Şəhər divarlarının içərisində yerləşən türbə 1167-ci ildə burada dəfn edilən Nurəddin Zəngi tərəfindən tikilib. Kompleksə məscid, mədrəsə və banisinin məqbərəsi daxildir. Bu, Dəməşqdə tikilən ilk belə kompleksdir.

Türbə-mədrəsə kompleksi iki günbəzdən ibarətdir. Birincisi və daha hündür olanı Nurəddin Zənginin türbəsi, ikincisi isə Dəməşq valisi Əmir Camaləddinin məzarı üzərindədir.

Əyyubilərin dövründə də ibadət komleksləri inşa edilirdi. Bunlara Əqsab və Hənəbilə məscidlərini göstərmək olar.

Əyyubilərdən sonra şəhərə hakim olan Məmmlüklərin dövründə inşa edilən və əhali arasında Yalbuğa məscidi kimi tanınan digər ibadət yeri isə bəzi tarixi qaynaqlara görə 1346-47-ci illərdə Yalbuğa əl-Yəhyavi tərəfindən inşa edilib. Barada çayı üzərində tikilmiş məscid sonralar bir müddət biskvit fabriki kimi istifadə olunmuşdur. 1974-cü ildə yenidənqurma məqsədilə sökülmüş, 27 oktyabr 2014-cü ildə isə tikintisi başa çatmışdır.

Dəməşqin memarlıq tarixində yeni dövr Osmanlıların şəhəri fəthindən sonraya təsadüf edir. Bu dövrə aid ilk memarlıq nümunəsi I Səlimin əmri ilə 1518-ci ildə Dəməşqdə inşa etdirilən Səlimiyyə təkyəsidir. Təkyə məscid və imarətdən ibarətdir. Məscid İbn Ərəbi türbəsinin yerində inşa edilib.

Dərviş Paşa məscidi XVI əsrə aiddir. Məscid 1574-cü ildə Dəməşqin Osmanlı valisi Dərviş Paşa tərəfindən tikilmişdir.

Şəhərdəki Osmanlı memarlığının daha bir nümunəsi Sinan Paşa məscididir. Məscid 1590-cı ildə 1589-1593-cü illərdə Dəməşqin Osmanlı tərəfindən təyin edilmiş valisi Sinan Paşa tərəfindən tikilib. Qara və ağ daşlardan sıra ilə tikilmiş məscidin daxilində mədrəsə də mövcudur. Məscidin qərb portalının tağlı girişi hər iki tərəfdən kvadrat mozaika panelləri ilə lövbərlənmiş ərəb yazıları olan mərmər panelin üstündə nəbati motivlərdən ibarət şirli kaşı panellə örtülmüşdür. Yaşıl boyalı minarəlirinin tikintisində bişmiş kərpicdən istifadə olunmuşdur.

Başqa bir Osmanlı memarlıq nümunəsi Süleymaniyyə təkiyəsidir. Təkiyə Osmanlı sultanı I Süleymanın tapşırığı 1554-1559-cu illər arasında Memar Sinanın planlarına uyğun olaraq inşa edilib. 1566-cı ildə mədrəsə kimi istifadə etmək üçün şərq tərəfində başqa bir bina əlavə olunub.

Dəməşqdəki ilk Osmanlı binası olmasa da, Süleymaniyyə təkyəsi Dəməşqə Osmanlı memarlıq üslubunun gətirilməsinin sübutlarından hesab edilir. İnşasından sonrakı əsrlərdə Məkkəyə gedən zəvvarların "Suriya yolu"nda mühüm dayanacağına çevrilən təkyə bu günə qədər Dəməşqdəki ən mühüm Osmanlı mədəniyyət binası kimi qəbul olunur. 1922-ci ildə Osmanlı sultanlığının ləğvindən sonra sürgünə məcbur edilən sonuncu Osmanlı sultanı VI Mehmet bu kompleksin qəbiristanında dəfn olunub.

Dəməşqin İsmal memarlıq incilərindən daha biri - Nəbi Habil məscidi 1599-cu ildə Osmanlı valisi Əhməd paşa tərəfindən Zəbadani vadisinin yaxınlığında inşa edilib. Rəvayətlərə görə, dünyanın ilk insanlarından sayılan Habilin qəbri məscidin içərisindəki sarkofaqdadır.

Dəməşq 2022-ci ildə İslam mədəniyyəti paytaxtı seçilib.

**Hazırladı: Tural Vəlizadə**

## İSPANİYADA TANRI MİTRAYA İTHAF OLUNMUŞ ZİYARƏTGAH AŞKAR EDİLİB

"ArceoNews" xəbər verir ki, İspaniyanın Kabra şəhərindəki Villa-del-Mitrada qazıntı işləri aparan arxeoloqlar ritual ziyafətlərin qalıqlarının da olduğu, tanrı Mitraya ithaf edilmiş ziyarətgah aşkarlayıblar.

Mitraizm bizim eranın I əsrinin sonlarında Roma imperiyasında populyarlaşdıqdan sonra din kimi məşhurlaşmışdı. Burada tanrı Mitraya sitayiş Hind-İran tanrısı Mitranın romanlaşmış forması idi (romanlaşma - qədim Roma mədəniyyətinin və latın dilinin qədim Roma imperiyası hakimiyyəti altına düşmüş xalqlar tərəfindən mənimsənilməsi). II-III əsrlərdə Roma imperiyasında bu tanrı-imperatora sədaqət hamisi sayılırdı.

Romanın Likabrum şəhərində yerləşən Villa-del-Mitra isə eramızın I əsrinə aid edilir. Villaya bu ad ərazidə aşkar edilmiş və Mitranın öküzü (ölüm və yenidən dirilmə simvolu) qurban verməsini təsvir edən Mitra de Kabra heykəlinin şərəfinə qoyulub.



Malaqa Universiteti, Madrid III Karlos Universiteti və Kordova Universitetinin arxeoloqları son qazıntılar zamanı eramızın II əsri-III əsrinin əvvəllərinə aid Mitra ziyarətgahının qalıqlarını aşkar ediblər.

Ziyarətgah Domusun cənub-qərbində yerləşən, ölçüsü 7,2x2,5 metr olan düzbucaqlı otaq şəklindədir. Onun bir neçə pillə aşağı endikdən sonra iki daş skamya ilə əhatə olunmuş ziyarətgaha aparan dar girişi var. Tədqiqat qrupu hesab edir ki, bu kürsülərdən Mitranın şərəfinə ayinlər və ziyafətlər keçirərkən oturmaq üçün istifadə ediblər. Divarlarda Roma kərpiclərinin fraqmentlərinə rast gəlinir. Onlardan birində iki dəlik və ya oyuq var, ehtimal ki, orada tauroktoniya heykəli, yəni öküzün öldürülməsi səhnəsi olub.

## 1100 İLLİK İBRANİCƏ İNCİL HƏRRACA ÇIXARILACAQ

IX əsrdə perqament üzərində Bibliya mətni yazmaq 100-dən çox heyvan dərisi, 400 vərəq perqament və bütün Müqəddəs Kitabı məharətlə köçürən təcrübəli katibdən saysız-hesabsız saatlar tələb edən bahalı bir iş idi. Bu mətnlərin ən qədim və ən dolğunlarından biri olan "Codex Sassoon" may ayında "Sotheby's" auksionunda satışa çıxarılacaq. Bu barədə "Artnet News" məlumat yayıb.

"Codex Sassoon"-un dəyəri 30 milyon dollardan 50 milyon dollara qədər nəzərdə tutulub. Belə bir təxmini qiymətin yuxarı həddində satılmaq onu indiyə qədər hərracda satılan ən qiymətli tarixi sənədə çevirəcək. Müqayisə üçün deyək ki, 1994-cü ildə Bill Qeyts Leonardo da Vinçinin əlyazmasını 30,8 milyon dollara satın almışdı, Ken Griffin isə 2021-ci ildə ABŞ Konstitusiyasının ilk nəşri üçün 43,2 milyon dollar ödəmişdi.

Yüksək qiymət sənədin yaşı (təxminən 1100 il), vəziyyəti (Yaradılış kitabının ilk 10 fəsli olmasa da) və əvvəlki tarixi mətnlərdəki presedentlə bağlıdır. "Codex Sassoon"-un hekayəsi də olduqca cəlbedicidir. Onun üzü IX əsrin sonu və ya X əsrin əvvəllərində Levantda bir katib tərəfindən köçürülmüş, XIV əsrdə dağıdılana qədər indiki Suriya ərazisindəki bir sinaqoqda saxlanılmışdır. Bundan sonra ibranicə İncil 600 il ərzində yoxa çıxmışdı. "Codex Sassoon" 1929-cu ildə Frankfurtda yenidən peyda olanda bibliofil David Solomon Sassun onu 350 funta (bugünkü pulla təxminən 65.000 dollara) almışdı. Bu səbəbdən mətn onun adını daşıyır.



Sassun İncilin X əsrə aid olduğunu iddia edirdi. Bu da onu ən qədim bütöv İncillərdən birinə çevirir. Satıcı Ceki Safra tərəfindən son radiokarbon tarixləşdirilməsi bu təxminləri təsdiqləyir.

"Codex Sassoon" üç hissəyə bölünmüş 24 kitabdan ibarətdir və Tövrat vərəqlərindən fərqli olaraq, ibranicə tələffüzü və cümlə quruluşunu göstərən sait və vurğu işarələrini ehtiva edir. Annotasiyaların, şərhlərin və mülkiyyət hüququna dair qeydlərin mövcudluğu isə yəhudi şifahi ənənələri ilə müasir ibrani İncilləri arasındakı əlaqəni araşdırmaq baxımından mətni dəyərli edir.

Müqəddəs Kitab yazın sonunda hərraca çıxarılmazdan əvvəl Təl-Əviv, Dallas, Los-Anceles və Nyu-Yorkda nümayiş etdiriləcək.

## SANKT-PETERBURQDA RUSİYANIN MÜSƏLMAN XALQLARINA HƏSR OLUNMUŞ SƏRGİ AÇILIB

Rusiya Etnoqrafiya Muzeyində "İman və fəzilət yolu: Rusiya müsəlman xalqlarının bədii ənənələri" adlı sərgi açılıb. Sərginin eksponatları muzeyin əməkdaşları tərəfindən Qafqaz, Volqaboyu, Orta Asiya və Qazaxıstana ekspedisiyalar zamanı toplanıb. Bu barədə "TASS" agentliyi xəbər verib.

Ekspozisiya İslamın beş əsasını (kəlmeyi-şəhadət, namaz, oruc, zəkat, həcc) və möminlər üçün qəbul edilmiş, yerinə yetirilməsi başqalarının nəzərində fəzilət sayılan davranış qaydalarını əks etdirir. Hər bir mövzu bədii keyfiyyətə malik məişət mədəniyyətinin real abidələrini cəlb etməklə işıqlandırılıb.



Ümumilikdə sərgidə əsasən XIX-XX əsrlərə aid 150-yə yaxın eksponat nümayiş etdirilir. Onların bir çoxu müsəlman Şərqinin bədii yaradıcılıq normasını əks etdirən tətbiqi xalq sənəti abidələridir. Ziyarətçilər sərgidə namaz xalçaları, müxtəlif bəzək əşyaları, müsəlman geyimləri, XVIII əsrə aid kəşkül (dilənçilik qabı) görə biləcəklər.

Sərgidə Qurani-Kərim də nümayiş etdirilir. "Quranların nümayişi üçün xüsusi olaraq zalda yumşaq işıqlandırma var. Təbii ki, onlara kənar toxunuşlar olmayacaq. Ən əsası isə biz onların vəziyyətinə nəzarət edəcəyik", – deyə tarix elmləri doktoru, sərginin kuratoru Vladimir Dmitriyev bildirib.

## VARŞAVADA SON 100 İLDƏ İLK PRAVOSLAV KİLSƏSİ TİKİLİB

Varşavada Tanrının hikməti - Müqəddəs Sofiya kilsəsinin inşası tamamlanıb. Varşavanın və Bütün Polşanın Böyük Mitropoliti Savva yaydığı bəyanatda Polşa Kilsəsinin möminlərinə xoş xəbəri elan edib. Polşa Pravoslav Kilsəsinin rəhbəri tikinti prosesinə maddi, fiziki və dualarla dəstəyinə görə möminlərə təşəkkürünü bildirib.

Yeni məbədin böyük təqdis mərasimi may ayında baş tutacaq.

Mitropolit Savva vurğulayıb ki, Müqəddəs Sofiya kilsəsi "Varşava üsyanında, əmək düşərgələrində və konslagerlərdə ölənlərin, Şərqə və ya Qərbə zorla köçürülənlərin" abidəsidir. "Buna görə də, məbəddə onların ruhlarının dincəlməsi üçün dualar oxunacaq ki, biz hamımız əcdadlarımızın əzablarını xatırlayaq".

Müqəddəs Sofiya Varşavada son 100 ildə tikilmiş ilk pravoslav kilsəsidir. Memar Andrjey Markovski kilsənin dizaynını Konstantinopol Ayasofyasının maketi əsasında hazırlayıb. Müəllifin ideyasına görə, məbədin görünüşü pravoslavlığın köklərini xatırlatmalıdır.



Məbədin təməl daşı 2015-ci ildə qoyulub. 2020-ci ildə məbədin zəng qülləsində zənglər quraşdırılıb, Varşava və Bütün Polşa Mitropoliti Savva onu kiçik təqdis edib. O vaxtdan bəri məbəddə müntəzəm olaraq ibadətlər keçirilir.

Varşavada təxminən 30-40 min pravoslav dindar yaşayır. İndiyə qədər şəhərdə cəmi iki pravoslav kilsəsi var idi: 1867-1869-cu illərdə tikilmiş Müqəddəs Mariya Maqdalena kilsəsi və 1905-ci ildə tikilmiş Müqəddəs İohan Lestviçnik kilsəsi. Ümumilikdə XX əsrin əvvəllərində Polşa paytaxtında onlarla pravoslav kilsəsi olub, lakin onların əksəriyyəti 1920-ci illərdə dağıdılıb.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini fevral ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Ucar, Göyçay, Kürdəmir və Zərdab rayonlarında fəaliyyət göstərən din xadimlərinin iştirakı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində "Dini ekstremizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH), Yeni Azərbaycan Partiyası (YAP) Zaqatala rayon təşkilatının və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Yuxarı Tala kəndi 2 nömrəli tam orta məktəbdə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Qərb Regional Mərkəzi, Goranboy RİH, rayon Gənclər və İdman İdarəsinin (Gİİ) birgə təşkilatçılığı ilə "Heydər Əliyev və gənclər siyasəti" mövzusunda;



**2 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar RİH, rayon Gİİ, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qusar rayon şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda;

**3 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin (RPŞ) birgə təşkliatçılığı ilə Qazyan kənd tam orta məktəbində "Dini radikalizm, narkomaniya və erkən nikah" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Kürdəmir rayonu Peşə Liseyində "Heydər Əliyev və azərbaycançılıq ideologiyası" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl şəhər İ.Novruzov adına 4 nömrəli tam orta məktəbində "Dini fanatizm və dini radikalizmin mahiyyəti" mövzusunda;

**6 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay RPŞ və Mərkəzi Aran Regional Təhsil İdarəsinin rayon sektorunun birgə təşkilatçılığı ilə Göyçay rayonu Ləkçıplaq kənd 1 saylı tam orta məktəbində "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda;

**7 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Quba Dövlət Sosial-İqtisadi Kollecinin birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan gəncliyi: milli-mənəvi dəyərlərin təbliği" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmin və ekstremizmin yaratdığı təhlükələrin qarşısının alınmasında gələcək nəslin rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH və RTŞ-nin birgə təşkilatçılığı ilə Şəmkir şəhər Fərman Salmanov adına tam orta məktəbində "Azərbaycanda tolerantlığın və multikulturalizmin dövlət siyasətinə çevrilməsində Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in birgə təşkilatçılığı ilə Balakən rayonu Akademik Zərifə Əliyeva adına şəhər 3 №-li tam orta məktəbində "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və Azərbaycan məfkurəsi" mövzusunda;

**8 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Kürdəmir RİH və Kürdəmir "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev və vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Siyəzən rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Siyəzən şəhər R.Ramazanov adına 5 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş Rayon Peşə Məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Güllük kənd tam orta məktəbində "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Şabran RİH və İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsman) Şimal Regional Mərkəzinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev irsinin təbliğində dini icmaların rolu" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı rayonu "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Saatlı rayonu M.Əliyeva adına Əlisoltanlı tam orta məktəbində "Heydər Əliyev İli" çərçivəsində;

**9 fevral** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Tovuz RİH, YAP Tovuz rayon təşkilatı və Qazax-Tovuz Regional Təhsil İdarəsinin Tovuz rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Tovuz şəhəri Adil Qasımov adına tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon Gİİ və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Muxax kəndi 2 №-li tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Heydər Əliyev Mərkəzi və "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev məfkurəsi" mövzusunda;

**10 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və rayon Peşə məktəbinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda;

**14 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və RPŞ-nin birgə təşkilatçılığı ilə Nizami Gəncəvi adına Sərkar kənd tam orta məktəbində "Gənclərimizi dini radikalizmin təsirlərindən necə qoruyaq?" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon Gİİ, rayon Nizami Gəncəvi adına Mərkəzi Kitabxanalar Sistemi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhəri akademik Zərifə Əliyeva adına liseydə "Heydər Əliyev və mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu RPŞ, rayon Gİİ və rayon Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Ağsu şəhər 3 saylı tam orta məktəbində "Dini radikalizm, ekstremizm və narkomaniya ilə mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayonu Bırkandul kənd məscidində "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda;

**15 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Faxralı kənd tam orta məktəbində "Gənclərin radikal təsirlərdən qorunmasında təhsil amilinin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Zərdab RİH-in birgə təşkilatçılığı ilə rayondakı mövcud dini duruma həsr olunmuş dəyirmi masa; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Ağstafa RİH, rayon Gİİ və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda;



16 fevral – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər D.Əliyeva adına 1 №-li tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin və Lerik RİH-in birgə təşkilatçılığı ilə Lerik şəhəri V.Müslümov adına 2 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda;

17 fevral – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Safıkürd kənd Mədəniyyət evində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və milli dəyərlərə təhdid kimi" mövzusunda;

**21 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və RPŞ-nin birgə təşkilatçılığı ilə Elton İsgəndərov adına Əhmədbəyli kənd tam orta məktəbində "Multikulturalizm və tolerantlıqda dünyaya nümunəyik" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon Gİİ və Saatlı "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə M.Mehbalıyev adına Nərimankənd kənd tam orta məktəbində "Ulu Öndər Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Ə.İbrahimov adına Nabur kənd tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı RİH və İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmlənməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayon Gİİ-nin birgə təşkilatçılığı ilə "Dini radikalizmə yox deyək!" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İkinci Nügədi kənd "Molla Hud" məscidi dini icmasının birgə təşkilatçılığı ilə Qubada;

**22 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və rayon Gİİ-nin birgə təşkilatçılığı ilə "Heydər Əliyev - Müasir Azərbaycanın memarı və qurucusu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı rayon Gİİ və RPŞ-nin birgə təşkilatçılığı ilə Yardımlı rayonu Bozayran kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə rayonun Səməd Vurğun adına 3 saylı tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Səfikürd kənd məscidində "Radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi rayon Pərioğullar kənd tam orta məktəbində dini radikalizm mövzusunda;

**23 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon Heydər Əliyev Mərkəzi və rayon Gİi-nin birgə təşkilatçılığı ilə "Gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda;

**24 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Daşkəsən RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Goranboy RİH, QMİ-nin Goranboy rayonu və Naftalan şəhəri üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Vətənpərvərlik milli-mənəvi dəyərimiz kimi" mövzusunda;

davamı səh. 13

# QISA-QISA

əvvəli səh. 12

**27 fevral** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Nizami RİH və 129 №-li tam orta məktəbinin birgə təşkilatçılığı ilə "Sağlam həyat tərzinin formalaşmasında milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən N saylı hərbi hissədə "Vətənpərvərlik milli-mənəvi dəyərimiz kimi" mövzusunda;

**28 fevral** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax Peşə Liseyində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müəllimlər və şagirdlərin, hərbçilərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə yad dini-ideoloji qüvvələr tərəfindən cəmiyyət daxilində dini məzhəbçilik meyillərinin qarşısının alınmasında, milli birliyimizə və dini təhlükəsizliyimizə qarşı yönələn məqsədli fəaliyyətə qarşı mübarizədə effektiv dini maarifləndirmə tədbirlərinin aparılmasının vacibliyi vurğulanıb.

Çıxışlar zamanı milli birliyin möhkəmlənməsində



mənəvi dəyərlərin rolundan danışılıb. Qeyd olunub ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Həmçinin vurğulanıb ki, Prezident cənab İlham Əliyevin başçılığı ilə dini sahəyə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə milli və dini dəyərlər, dövlət-din münasibətləri yüksək inkişaf səviyyəsinə çatmışdır. Natiqlər milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin də üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıblar.

Məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayan natiqlər bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar. Tədbirlərdə həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də bəhs olunub.

Çıxışlar zamanı Ümummilli Lider Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti haqqında danışılıb. Qeyd edilib ki, respublikamızda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasının formalaşması dövlətçiliyimizin və xalqımızın inkişafında mühüm rol oynayıb, eləcə də milli özünüdərkin və milli ruhun dirçəlməsinə səbəb olub. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi tarixi hadisədir. Ulu Öndər daim Azərbaycanın inkişafı naminə çalışıb, nəticədə ölkəmiz dünyanın aparıcı ölkələrindən birinə çevrilib.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# XOCALI FACİƏSİNİN 31-Cİ İLDÖNÜMÜNƏ HƏSR EDİLMİŞ ANIM TƏDBİRLƏRİ TƏŞKİL OLUNUB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələrinin təşkilatçılığı ilə Xocalı faciəsinin 31-ci ildönümü münasibətilə bölgələrdə silsilə tədbirlər keçirilib.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələri, rayon icra hakimiyyətləri, rayon gənclər və idman idarələri, rayon təhsil şöbələri, YAP rayon təşkilatları və digər qurumların əməkdaşları, məktəb direktorları və psixoloqları, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, dini icma sədrləri, din xadimləri, dindarlar, ziyalılar, gənclər və yuxarı sinif şagirdləri, dini konfessiyaların və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirlərdə öncə Xocalı qurbanlarının və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışçılar Xocalı faciəsi haqqında geniş məlumat veriblər. Qeyd olunub ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün dünyaya, bəşəriyyətə qarşı yönəldilib. Bildirilib ki, Xocalı soyqırımına ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən hüquqi və siyasi qiymət verilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan ordusunun xalqımıza qazandırdığı tarixi Zəfərin 30 il bundan əvvəl baş vermiş faciənin qisası və layiqli cavabı olduğu vurğulanıb.

Bildirilib ki, Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib. Vurğulanıb ki, faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır.

# DÖVLƏT KOMİTƏSİNİN KÖNÜLLÜLƏRİ TÜRKİYƏDƏ ZƏLZƏLƏDƏN ZƏRƏR GÖRƏN ƏRAZİLƏRDƏ FƏALİYYƏTLƏRİNİ DAVAM ETDİRİRLƏR



Türkiyənin cənub-şərqində baş verən və genişmiqyaslı dağıntılar, çoxsaylı insan itkisinə səbəb olmuş zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında olaraq təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına dəstək verir. Türk xalqına yardım məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin könüllüləri də daxil olmaqla Azərbaycan gəncləri könüllü kimi zəlzələ bölgəsində fəaliyyətlərini davam etdirirlər.

Artıq üçüncü həftədir ki, fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatya bölgələrindəki çadır şəhərciklərində könüllü kimi çalışan azərbaycanlı gənclər on minlərlə zərərçəkmiş şəxsə xidmət edir, eləcə də zəlzələ bölgələrindəki müxtəlif məntəqələrdə qida, geyim, dərman, gigiyenik vasitələr, müxtəlif yardımların boşaldılması, çeşidlənməsi, paylanmasını həyata keçirir, yerli əhaliyə səyyar şəkildə su və isti içkilər paylayır, digər dəstəkverici xidmətlər göstərirlər. Həmçinin könüllü gənclərimiz çörəkbişirmə və paylama məntəqəsində fəaliyyətə başlayıb, habelə ucqar kəndlərə səfər edərək humanitar fəaliyyətlərin həyata keçirilməsində fəal şəkildə iştirak edirlər.

Xüsusi vurğulamaq lazımdır ki, zəlzələ bölgəsindəki uşaqların sevimlisinə çevrilən Azərbaycan könüllüləri bu bölgələrdə yaşayan həssas vəziyyətdəki minlərlə uşağa xidmət edirlər. Belə ki, könüllülərimiz zərərçəkmiş uşaqların reabilitasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi çadırlar quraşdırıb, habelə təbii fəlakət zamanı keçirdikləri sarsıntıları, yaşadıqları travmaları minimuma endirmək üçün hər gün yüzlərlə uşağa qayğı və psixoloji dəstək xidməti göstərir, eləcə də müxtəlif oyunlar və digər əyləncəli-maarifləndirici fəaliyyətlər təşkil edirlər. Həmçinin gənclərimiz tərəfindən "uşaq və ana mərkəzi" kimi fəaliyyət göstərən çadırlar qurulub ki, burada uşaqlara kino və cizgi filmlərinin göstərilməsi üçün də şərait yaradılıb.

# ROMA PAPASI TÜRKİYƏ VƏ SURİYADA ZƏLZƏLƏDƏN ZƏRƏR ÇƏKƏNLƏRƏ YARDIM GÖNDƏRİB



"Catholicnewsagency" və "Fides"-in verdiyi xəbərə görə, Roma Papası Türkiyə və Suriyada zəlzələdən zərərçəkənlərə yardım, o cümlədən dəniz yolu ilə Türkiyəyə 10 min termal köynək göndərib, Suriyaya isə miqdarı açıqlanmayan pul köçürüb.

Vatikanın rəsmi nəşri olan "Vatican News" yazıb ki, pontifik "İtaliya hökuməti və qeyri-hökumət təşkilatları ilə birgə Türkiyə və Suriyanın əziyyət çəkən xalqlarına kömək edir". Həmçinin qeyd olunub ki, termo köynəklər İtaliyanın "Fondazione Rava" qeyri-kommersiya təşkilatı tərəfindən ehtiyacı olanlara paylanacaq.

Papa Fransisk fevralın 12-də "Rəbbin mələyi" bazar günü duasından sonra Apostol sarayının pəncərəsindən növbəti müraciəti zamanı dindaşlarını viran olmuş bölgəyə səxavətlə kömək etməyə çağırıb. "Əziz qardaş və bacılar, gəlin Suriya və Türkiyədə baş verən zəlzələ qurbanları üçün dua etməyə və konkret dəstək göstərməyə davam edək. Bu fəlakətin səbəb olduğu ağrı və iztirab görüntüləri məni dərindən təsirləndirdi. Sizi dua etməyə və onlar üçün nə edə biləcəyimizi düşünməyə çağırıram", - deyə pontifik bildirib.

"Fides" bununla bağlı əlavə edib ki, böyük insan faciəsi bütün dünyada saysız-hesabsız həmrəylik təşəbbüslərinə səbəb olub. Papa Missiya Cəmiyyətlərinin (PMS) Milli Müdirlikləri Papa Fransiskin dua və konkret hərəkətlərlə əziyyət çəkən bölgələrə dəstək olmaq çağırışına cavab olaraq dərhal xüsusi kampaniyalar başladıblar. PMS Milli Müdirlikləri tərəfindən toplanan vəsait yerli kilsələrin ehtiyacları və təxirəsalınmaz vəzifələrindən daha çox xəbərdar olan Türkiyə və Suriyadakı PMS Müdirlikləri ilə sıx koordinasiyada PMS-in prezidenti, arxiyepiskop Emilio Nappa vasitəsilə bölüşdürülür.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**"Sabirabad rayonu Moranlı kəndi "Hacı Mirsoltan ağa" məscidi" dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118C-882

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Xudiyev Umud Ataxan oğlu, İsmayılov Ələsgər Talıbxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İslamov Alıddin Dədəkişi oğlu, Əsədov Dilavər Ziyadxan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 yanvar 2023-cü il

**"Masallı rayonu Sığdaş kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 25 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 185

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Tarverdiyev Allahverən Camal oğlu, Quliyev Əliquli Rəmiəli oğlu, Əliyev Şükür Leysan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Məcidov Balayar Ağayar oğlu, Sahibova Azadə Məzahir qızı, Sadıxov Təyyar Möhübbət oğlu, Şahmarov Şərafət Yadulla oğlu, Əliyev İmaməddin Ağaddin oğlu, Əliyeva Mina Davud qızı, Nuriyev Şəmşir Əlibaba oğlu, Kişiyeva Əsməgül Ağakişi qızı, Əliyev Mail Ağaddin oğlu, Əliyeva Reyhan Muğdad qızı, Şahmarova Pakizə Talıb qızı, Əliyeva Nazilə Əlifxan qızı, Kişiyev Röyal Şıxəli oğlu, Əliyev Əfqan Oğlan oğlu, Tağıyev Mirabbas Mirhüseyn oğlu, Qənbərov Ehtibar Mirzəxan oğlu, Əliyev Qəni Davud oğlu, Məmmədov Ülvi Furqan oğlu, Kişiyev Şıxəli Dədəkişi oğlu, Əliyev Novruz Hacıəli oğlu, Qurbanov Rəvvaq Əliməmməd oğlu, Əbilova Zərifə Fazil qızı, Əliyeva Bahar Məmməd qızı, İsayev İsa Nəzər oğlu, Sahibov Şöhlət İman oğlu, Quliyev Qabil Umud oğlu, Sadıxov Rəsul Möhübbət oğlu, Rəhmətov Vidadi Əbdülbağı oğlu, Əliyev Fəxrəddin Davud oğlu, Xanışova İsmət Elxan qızı, Sadıxov Qudrət Rəsul oğlu, Qurbanov Salman Əsab oğlu, Məmmədov Nəriman Mütalib oğlu, Sovziyeva Pərvanə Xanqulu qızı, Bağırov Mansur Rəfail oğlu, Əliyev Xudaddin Bahaddin oğlu, Bağırova Sitarə Möhbəli qızı, Kərəmov Orduxan Kərəm oğlu, Bəşirova Qətibə Cümşüd qızı, Salayeva Mehparə Ağaməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 yanvar 2023-cü il

**"Qəbələ rayonu Nic qəsəbəsi Abdallı məhəllə məscidi" dini icması**

Qeydiyyat tarixi: 22 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 309

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ağamməd ov Səxavət Elşad oğlu, Məmmədov Bahadur Əhməd oğlu, Alxasov Cəlil Qara oğlu, Alxasov Qasım Qara oğlu, Əhmədov Əvəz Niyazi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mursalıyev Bəhruz Mübariz oğlu, Xasməmmədova Gülbahar Əvəz qızı, Əhmədov Vüqar Vidadi oğlu, Məmmədov Təhmiraz Şakir oğlu, Məmmədəliyev Cəmil Usub oğlu, Muradov Rəşad Qalib oğlu, Dəmirov Gündüz Dəmir oğlu, İslamov Tural İlham oğlu, Hüseynli Anar Rüstəm oğlu, İsmiyev Səxavət Saməddin oğlu, Kazımov Xəyyam Əbülfəzeviç, Əhmədov Nəzər Niyazi oğlu, Məmmədov Xəyyam Tahir oğlu, Məmmədov Əbülfət Mayıl oğlu, Muradxanov Saleh Mirzə oğlu, Çələbiyev İsmayıl Nuralı oğlu, Dəmirov Xəqani Qubat oğlu, Nəsrullayev Mirdamət Arif oğlu, Qəribov Qərib İslam oğlu, Nəsrullayev İlyas Venyamin oğlu, Hacıyev Elsevər Nəbi oğlu, Alxasov Pəhləvi Şahvələd oğlu, Əliyev Cavid Nazim oğlu, Məmmədəliyev Mahir Məhəmməd oğlu, Hacıyev Elməddin Mehdi oğlu, Əzizli Şahin Qaraş oğlu, Müzəffərov Şirvan Şirin oğlu, Əhmədov Nəsib Nəriman oğlu, Məmmədov Tahir Mərdan oğlu, Əhmədov Fəzail Vəliyəddin oğlu, Muradxanov Binyam Mirzə oğlu, Abdurahmanov Aqil Aydın oğlu, Məmmədov İsrafil İspəndiyar oğlu, Məmmədov Zahir Tahir oğlu, Qəribov Niyaməddin Qərib oğlu, Qəribov Tağı Allahverən oğlu, İsmiyev Elnur Dönməz oğlu, Hacıyev Samir Qiyas oğlu, Əliməmmədov Rəhim Rasim oğlu, Dəmirov Bəhman Mehman oğlu, Tahirov Yaşar Salam oğlu, Əhmədov İlqar Feyruz oğlu, Əzizov Kamandar Əmilfət oğlu, Müzəffərli Məhəbbət Məhəmməd oğlu, İslamov Etibar Bilal oğlu, Xasməmmədov Əmirxan Srac oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 27 yanvar 2023-cü il

**"Saatlı rayonu Günəşli kənd məscidi (1)" dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2-340

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Niyazov Jabar XXX, Niyazov Qaffar Taşali oğlu, Qəhrəmanov Kamal XXX, Şakirov Həlimcan Said oğlu, Əlizarov Mustafa Fəhmiyeviç, Dovkarov Muxammadjon Raximoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kaxramonov Jabir Alixanoviç, Maxamadiev Xamid Cəvriyeviç, Bikirova Xadice Zeynalovna, Alıeva Zarina Faxritdinovna, Alizarov Katib Muratoviç, Şahmanov Elşən Əhməd oğlu, Maxmudova Maxbuba Kibarovna, Alizarov İsgəndər Murad oğlu, Maxmudov Nabijon Azaloviç, Maxmudova Fatima Anvarovna, Maxmudov Vali Nabicanoviç, Bikirova Xanzada XXX, Mamedov Alim İslamoviç, Əliyev Həsən Mehti oğlu, Rijalov Nariman Badişoviç, Alizarova Fatima Xutamovna, Usmanov Əkrəmcan Şaismayıl oğlu, Bəkirova Dildar Muştaq qızı, Şadmanov Raimjon Şaxsaddinoviç, Paşaliyeva Nəzakət Mərdəli qızı, Bəkirov Əhməd Musa oğlu, Bəkirov Elxan Əhməd oğlu, Şadmanov Baxodir Raimcanoviç, Paşaliyev Mamed XXX, Umarova Sabriya Dusari qızı, Novruzov Vahid Əmrah oğlu, Şadmanov İbrahim Batır oğlu, Şadmanov Batır Şaxsuddinoviç, Şahmanov Şamil Əhməd oğlu, Şahmanov Əhməd Mərdəli oğlu, Şahmanova Xalidə Lətif qızı, Bikirov Laçın Karimjonoviç, Maxramova Fatıma Xamdiyevna, Saydulova Dona Sakibovna, Məmmədov Müzəffər Zeynul oğlu, Məmmədova Nəzirə XXX, Məmmədov Bayram Həmdi oğlu, Aliev Furiddin Aladineviç, Kamalov Aydın Mansur oğlu, Şadmanova Alfira Murşid qızı, Usmanova Mehrinisə İzahar qızı, Mamadaliyev Maxamad Şaxzadaoviç, Paşaliyev Sabir Rəhim oğlu, Utarov Şuxrat Rustamoviç, Mamadaliyeva Quldasta Xafizovna, Əliyev Məcid Məmmət oğlu, Paşaliyeva Güldəstə İzo qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 02 fevral 2023-cü il

**"Qəbələ rayonu Soltannuxa kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 143

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qəribov Seymur Xanlar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Xəlilov Ədalət Məhəmməd oğlu, Babayev Səhrab Rəmzi oğlu, Abdurahmanov Mayıs Abdurahman oğlu, Məmmədov Əlibala Şaban oğlu, Mayılov Elşad Şamil oğlu, Salamov Yasin Hüseyn oğlu, Baxışov Nurlan Telman oğlu, Şirinov Vəkil Sədrəddin oğlu, Salamov Eyvaz Hüseyn oğlu, Nurməmmədov Elman Hüseyn oğlu, Xəlilov Kainat Məhəmməd oğlu, Quluyev Arif Ağa oğlu, Baxışov Arzu Cahangir oğlu, Quluyev Ramil Qüdrət oğlu, Baxışov Teymur Fəxrəddin oğlu, Quliyev Ariz Şahid oğlu, Quluyev Akif Qurban oğlu, Nurməmmədov Seymur Şaban oğlu, Atakişiyev Arzu Yeruf oğlu, Rəhimov Rüfət Mirzə oğlu, Quliyev Mehman Qurban oğlu, Heydərov Xalid Xalis oğlu, Sabitov Məharət Müslüm oğlu, Sabitov Rəşid Müslüm oğlu, Gülənmədov Qabil Şəmsəddin oğlu, Osmanov Rəşad Yusif oğlu, Abbasov Nəsimi Şaiq oğlu, Ağasəfov Ehdiram Ağası oğlu, Baxışov İkram Ağalı oğlu, Camıyev Mehman Eyyub oğlu, Şabanlı Elçin Müsavər oğlu, Osmanov Zaur Sabir oğlu, Mustafayev Xasməmməd Cəbrayıl oğlu, Əlifov Nüsrət Eynulla oğlu, Quluyev Hafiz Nüsrət oğlu, Xəlilov Nizami Nurməmməd oğlu, Cəlilov Azad Qiyasəddin oğlu, Gülməmmədov İlham Bəxtiyar oğlu, Abbasov Fikrət Famil oğlu, Baxışov Zaməddin Ağəli oğlu, Kərimov Akif Eynulla oğlu, Əsədov Çingiz Niyazı oğlu, Zəkəriyyəyev Bəhlul Zahid oğlu, Əzizov Tehran Kərim oğlu, Seyidov İnqilab Hacıbala oğlu, Babayev Rasim Rəmzi oğlu, Məmmədov Nadir Hidayət oğlu, Əzizov Adil Bayramalı oğlu, Abbasov Zaur Şahin oğlu, Xəlilov Vilayət Nurməmməd oğlu, Kərimov Elşad Kərim oğlu, Mustafayev Nüsrət Atabala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Mahmudov Seymur Sədiyar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Sabitov Mahir Rəşid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 02 fevral 2023-cü il

**"Ağcabədi rayonu "Seyid Mürsəl Ağa" məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 93

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Alıyeva Zərxara Vəliqulu qızı, Allahverdiyeva Elmira Talıbxan qızı, Azadova Vüsalə Tofiq qızı, Cəfərov Cəlil Məhəmmədəli oğlu, Cəfərova Əsli Vəliqulu qızı, Cəfərova Rübabə Müslüm qızı, Əhmədova Gözəl Fərrux qızı, Əliyeva Məhruzə Abtalıb qızı, Əliyeva Nəzakət Rəhim qızı, Hacıyeva Səadət Zahid qızı, Hacıyeva Sevda Nəriman qızı, Həsənova Ətrabə Bəndalı qızı, Heydarova Gülnar Fərman qızı, Hüseyinova Sevil Mirəhməd qızı, Hüseynov Əlizamin Həmzə oğlu, Hüseynov Pərviz Eldəniz oğlu, İsmayılov Vasif Rafiq oğlu, İsmayılova Kamilə İsmayıl qızı, İsmayılova Leyli Qədim qızı, İsmayılova Sevda Əsgər qızı, Kazımova Məlahət Fərhad qızı, Mehdiyev Şahin Qaytaran oğlu, Mehdiyeva Ağgül İsa qızı, Mehdiyeva Cəmilə Ələsgər qızı, Məmişova Ağgül Əliqulu qızı, Məmmədova Vəzifə Rəhim qızı, Novruzova İmmi İmran qızı, Pirimov Nizami Əmirxan oğlu, Pirimova Xeyri Mirəhməd qızı, Qasımova Qonça Lənkəran qızı, Quliyeva Həqiqət Nəcəfqulu qızı, Quliyeva Püstə Qiyas qızı, Quliyeva Qumru Humay qızı, Quliyeva Xanım Mustafa qızı, Quliyeva Zərif Behbud qızı, Qurbanova Ayna Həsən qızı, Qurbanova Gülsabah Qurban qızı, Salmanova Səfurə Müslüm qızı, Səfərova Qənahət Rəhim qızı, Tağıyev İbadət Yusif oğlu, Tağıyeva Qələnfir Tağı qızı, Usubova Şövkət Camal qızı, Yusifova Əsmət Səyyaf qızı, Yusifova Xəzəngül Qanboy qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 fevral 2023-cü il

**"Şəki rayonu Bideyiz kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 221

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İskəndərov Aman Zəkəryə oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Kərimov Ramin Əsədullah oğlu, Heydərov Xalid Sani oğlu, Əliyev Rüfət Yusif oğlu, Əliyev İslam Yusif oğlu, Babayev Əvəz Tacəddin oğlu, İsrafilov Tehran Camaləddin oğlu, Əliyev Eldəniz Xamməd oğlu, Məmmədov Rəfayıl Şakir oğlu, Quluyev İbrahim Gülməmməd oğlu, Əkbərov Fizuli Lütfəli oğlu, Musayev Eyvaz Fikirət oğlu, Əzizov Rasim Həzrət oğlu, Məmmədov Famil Nazim oğlu, Əzizov Nurlan Rasim oğlu, Abdullayev Yaşar Abdulla oğlu, Əkbərova İmarət Ağəli qızı, Abdullayeva Nadiyə Kamil qızı, Məmmədova Gülnarə Müzəffər qızı, Kərimova Firuzə Aydın qızı, Cəlilov İmran Sərkər oğlu, Cabbarov Vüsal Rufət oğlu, Cabbarov Rufət Cabbar oğlu, Səmədov Tofiq Nərman oğlu, İbadullayev Vidadi Xaləddin oğlu,

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

Xasiyev Yaqub Məmə oğlu, İsmayılov Azər Gündüz oğlu, Qaffarov Elxan Qaffar oğlu, Qaffarov Səbuhi Qaffar oğlu, Əzizov Cəmil Nurəddin oğlu, Kərimli Sabit Seyran oğlu, Həmidov Vüqar Əlosət oğlu, Məmmədov Mahir Cabir oğlu, Mustafayeva Müşgünaz Xəmməd qızı, İsmayılova Mehriban Məsim qızı, Cabbarova Sara Yunus qızı, Kərimova Məhəbbət Lütfəli qızı, İsrafilov Çingiz Camaləddin oğlu, Əliyev Nofər Nəsif oğlu, Məmmədov Cabir Tacəddin oğlu, Babayev Kamil Niyazı oğlu, İsrafilov Eldar Ələşrəf oğlu, Quluyev Qadir Ərzuman oğlu, Babayev Famil Niyazı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 fevral 2023-cü il

**"Oğuz rayonu Bayan kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C-670

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Üzeyirov Əziz Zəkəriyə oğlu, İsmayılov Sabir Həsən oğlu, Nazarov Eldar Osman oğlu, Salahov Cümşüd Osman oğlu, Həşimov Fikrət Adışirin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Həsrətov Ayaz Bəxtiyar oğlu, Məsimov Qalib Hidayət oğlu, Haşımov Şahid Söyün oğlu, Həşimov Məzahir Allahyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 10 fevral 2023-cü il

**"Göyçay rayonu Qaraməryəm kəndi "Fatimeyi Zəhra" məscidi" dini icması**

Qeydiyyat tarixi: 31 mart 2014-cü il
Qeydiyyat №-si: 100114A1-567

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Ramiz Vəli oğlu, İslamova Almarə Zakir qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qasımov Elçin Eyvaz oğlu, Səfərov Süleyman Vəli oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2023-cü il

**"Oğuz rayonu Baş Daşağıl kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3-401

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həmidov Əhməd Abdulhəlim oğlu, Hüseynov Hüseyn Seyfəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abdullayev Bakıxan Salam oğlu, Məmmədəliyev Kərəm Tərxan oğlu, Abbasov Vüsal Fariz oğlu, Surxayev Zahit Maxsumoviç, İskəndərov İskəndər Səbuhi oğlu, Məmmədəliyeva Xatirə Aləşrəf qızı, Abbasov Fariz Abdulhəmid oğlu, Mütübillazadə Faiq Abdulla oğlu, Mutubullayeva Cavahir Abdüləziz qızı, Haşımova Leyla Səbizalı qızı, Lillahov Loğman Fərəc oğlu, Feyzullayev Rəvan Eynulla oğlu, Abdullayev Ülvi Tahir oğlu, Qaffarov Əziz Yusif oğlu, Məmmədəliyev Elxan Kərəm oğlu, Abdullayev Tahir Balakişi oğlu, Rəsulova Gülxarə Rəcəbəli qızı, Musayeva Dilbər Heydar qızı, Mütübillayev Tərlan Şaban oğlu, Nəsibli Əli Hüseyn oğlu, Abdullayeva Elnurə Balakişi qızı, Mutubullayev Təbriz Ağa oğlu, İsgəndərova Gülnaz İsgəndər qızı, Haşımov Mənsur Yaqub oğlu, Bədəlov Tərlan Vaqif oğlu, Surxayev Rövşən Zahir oğlu, Surxayev Zahir Məhsumoviç, Surxayev Mahir Musa oğlu, Cabbarov Nurlan Yusif oğlu, Əsədov Fikrət Niymət oğlu, Səmədov Turğan Namət oğlu, İbrahimov Ruslan İbrahim oğlu, İbrahimova Dürriyə Ramazan qızı, Balabəyov Cavid Sədiyar oğlu, Əliyeva Nüşabə Salam qızı, Novruzova Ruqiyyə Abdüləziz qızı, Dadaşov Ramiz Vəssaf oğlu, Abdullayev Tofiq Musa oğlu, Daşdəmirov Azad Qeysəddin oğlu, Kərimov Mahir Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 fevral 2023-cü il

**"Oğuz rayonu Padar kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 28 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 453

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Yunusov İsmayıl Məhəmməd oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Abduyev Vüsal Həmid oğlu, Zahidov Akif Arif oğlu, Gülməmmədov İntiqam Sabir oğlu, Rüstəmov Rasim İspəndiyar oğlu, Zeynalov Emin Əvəz oğlu, İsgəndərov Rəşad Abir oğlu, Hüseynov Anar Lütfiyar oğlu, Abduyev Əhməd Əhməd oğlu, Abdıyev Ramiz Musa oğlu, Abduyev Röyal Məmmədcəlil oğlu, Cəfərov Salman Camaləddin oğlu, Məmmədəliyev Şərif Əhməd oğlu, Həsənov Fəxrəddin Əli oğlu, Rəhimli Camal Qalib oğlu, Abduyeva Narıngül Araz qızı, Rüstəmov Faiq Rasim oğlu, Qəribov Mahir Vahid oğlu, Yunusov Osman Qənbər oğlu, Kərimov Kərim İslam oğlu, Abdulkərimov Azər Zeynəddin oğlu, Verməziyar Tehran Həzrətqulu oğlu, Mirzəyeva Rəqiyə Gülalı qızı, Əhmədov Samir Məmmədəli oğlu, Əhmədova Cavahir Mirümər qızı, Orucov İlyas Əhmədiyyə oğlu, Məmmədəliyev Ramiz Xanlar oğlu, Məmmədəliyeva Aişə Faiq qızı, Rəhimova Gülgəz Hacıbala qızı, Zeynalova Zənfirə Musa qızı, Orucova Xanım Əhmədiyyə qızı, Qədirov Qədir Yusif oğlu, Orucov Faiq Şəmil oğlu, Abdıyeva Dilarə Bəhlul qızı, Səmədov Ruslan Fərrux oğlu, Səmədov Mehdi Həmid oğlu, Səmədov Pərvin Novruz oğlu, Səmədov Novruz Şamil oğlu, Salihov Pərvin Niymət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 fevral 2023-cü il

**"Qobustan rayonu Hilmilli kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 29 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 261

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Məmmədov Məhyəddin Canış oğlu, Həsənov Abdulla Dom oğlu, Həsənov İsmayıl XXX, Cəfərov Kərəm Kürən oğlu, Ağayev Xanoğlan İbrahimxəlil oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Şıxdədəyev Nizami Səməndər oğlu, Mansurov Dəyanət Dədəsən oğlu, Aslanov Nicat Valeh oğlu, Çələbiyev Səxavət Dərdiş oğlu, Haxverdiyev Tarverdi Səməd oğlu, Hüseyinov Əlihüseyin Çomərd oğlu, Hüseynov Novruz Əlihüseyn oğlu, Sandalov Səyar Əlifdar oğlu, Xankişiyev Əfqan Əmixan oğlu, Muradova Rubaba Allahverən qızı, Abdulaliyeva Yeganə Gülyar qızı, Rəsulov Valeh Vəlican oğlu, Ağamalıyev Tacir Mirbala oğlu, Muradov Akif Alı oğlu, Nəsrullayev Kamandar Səməndər oğlu, Zəkarayev Fətulla Əbil oğlu, Çələbiyev Saatbala Dərdiş oğlu, Rzayeva Cəmilə Əliağa qızı, Tağıyev Nəsimi Babatağı oğlu, Mirzəyev Samir Həşim oğlu, Abdulaliyev Qənbər Quliyar oğlu, Xankişiyev Əlzaman Xangəldi oğlu, Tağıyev Babatağı Məmmədtağı oğlu, Cəbrayılov Sabir Nubarək oğlu, Zəkarayev Emin Rizvan oğlu, Mirzəyev Arif Əlimirzə oğlu, Mirzəyev Üsyan İmamverdi oğlu, Mansurov Xudaman Bərxuda oğlu, Ağayev Yengibar Möhübbət oğlu, Ağamalıyev Asi Mirbala oğlu, Cəlilov Qardaşbaba Əlibaba oğlu, Cəbrayılov Qafran Cəbrayıl oğlu, Zəkarayev Namiq Borcalı oğlu, Bəndaliyev Balacavan Səlimxan oğlu, Aslanov Valeh Durbala oğlu, Quliyev Əmrah Baba oğlu, İbadov Beyker İldırım oğlu, Xankişiyev Atamkişi Əmixan oğlu, Mehraliyev Alim Mehbalı oğlu, Mansurov Xısro Şiravan oğlu, Şıxdədəyeva Nəsirə Nizami qızı, Muradova Gülümcan Vəlican qızı, Mirzoyev İmamverdi Təbdir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 fevral 2023-cü il

## DİN XADİMLƏRİNİN HƏQİQİ HƏRBİ XİDMƏTDƏN MÖHLƏT HÜQUQU LƏĞV OLUNUR



Gürcüstanda din xadimləri də həqiqi hərbi xidmətə cəlb olunacaqlar. Onların məcburi hərbi xidmətdən möhlət hüququ ləğv olunur. Hökumətin bununla bağlı hazırladığı qanun layihəsi artıq parlamentə təqdim edilib.

Gürcüstanın Müdafiə Məcəlləsinə təklif olunan yeni dəyişiklikdə deyilir ki, din xadimlərinin məcburi hərbi xidmətdən möhlət hüququ dövlətin müdafiə qabiliyyətini artırmaq prinsipləri ilə ziddiyyət təşkil edir. Effektiv müdafiəni planlaşdırarkən "ümumi müdafiə" prinsipi və yanaşması nəzərə alınmalıdır. Bu da ölkə ərazisində müdafiəni təmin etmək üçün milli resursların bütün potensialını səfərbər etməyə hazırlığı və qabiliyyətini, o cümlədən ehtiyatın tam işə salınmasını nəzərdə tutur.

Hökumətin parlamentə təqdim etdiyi arayışda bildirilir ki, ölkənin geosiyasi mövqeyi və total müdafiə prinsipi nəzərə alınaraq yeni ehtiyat sistemi tətbiq edilir. Bu sistemin mühüm amillərindən biri hərbi hazırlıq keçmiş şəxslərin, həm də xüsusi qeyri-hərbi bacarıqlara malik olan şəxslərin ehtiyata cəlb olunmasıdır. Bu da böhran şəraitində ehtiyatın idarə olunması proseslərini təkmilləşdirəcək.

## "QIZIL OĞLAN" ÖZ SİRLƏRİNİ AÇIR



Qədim Misirdə dəfn mərasimlərinin keçirilməsi barədə informasiya bu yaxınlaradək Qahirədəki Misir Muzeyinin zirzəmilərində gizli qalmışdı. Ölkənin cənubunda yerləşən Naq əl-Hassay məzarlığında 1916-cı ildə tapılmış yeniyetmə oğlanın mumiyası da tədqiq olunmamışdı. Lakin mumiyanın kompüter tomoqrafiyası vasitəsilə bu yaxınlarda aparılan təkrar analizi zamanı məlum olub ki, onu qızıldan olan 49 amulet və digər qiymətli bəzək əşyaları, habelə qızıl maska ilə dəfn ediblər. "Grunge" nəşri qeyd edib ki, indi onu "Qızıl oğlan" adlandırırlar.

Naq əl-Hassay məzarlığı təxminən eramızdan əvvəl 332-30-cu illərə aiddir. Tədqiqatçılar ehtimal edirlər ki, "Qızıl oğlan" 2300 il bundan əvvəl 14 və ya 15 yaşında vəfat edib. Ölüm vaxtı onun sümüklərinin vəziyyəti və "ağıl" dişinin çıxmaması da bunu təsdiq edir.

Qahirə Universitetinin radiologiya üzrə professoru Sahar Salim "Qızıl oğlan" haqqında tədqiqat əsəri yazıb. O, meyitin balzamlaşdırılması prosesini də təsvir edib. Alim qeyd edib: "Balzamlayan şəxslər mumiyalama vaxtı dua edib və amuletləri mumiyanın içərisində yerləşdirərək "Ölülər kitabı"ndan hekayələr oxuyublar".

Hazırda "Qızıl oğlan" Qahirədəki Misir Muzeyinin əsas ekspozisiya zalında nümayiş etdirilir. Sərgidə, həmçinin onun kompüter şəkilləri də təqdim edilir.

CƏMİYYƏT və DİN
№ 02 (376) FEVRAL 2023-cü il

# İSPANİYADA XIV ƏSRƏ AİD SİNAQOQ TAPILIB



İspaniyanın cənub-qərbində, Sevilya yaxınlığındakı Utrerada arxeoloqlar XIV əsr sinaqoqunun qalıqlarını aşkar ediblər. Bu, 1492-ci ildə yəhudi sürgünlərindən sağ çıxan beş sinaqoqdan biridir (ikisi Toledoda, biri Seqoviyada, biri Kordovada).

Nino Perdido küçəsində 1492-ci ildə tikilmiş bina Mizerikordiya Xəstəxanasının yeri kimi tanınırdı. Elə həmin il kral Ferdinand və kraliça İzabella bütün yəhudiləri öz krallığından qovdular.

Tarixçi Rodriqo Karo Utreranın 1604-cü ilə aid tarixçəsində buranın adını çəkərək xəstəxananın keçmiş yəhudi məhəlləsində olduğunu və sinaqoqun xarabalıqları üzərində tikildiyini qeyd edir. O vaxtdan bəri bura katolik kilsəsi, məktəb və bar (və ya gecə klubu) daxil olmaqla bir çox başqa məqsədlərlə istifadə edilmişdir.

Sürgünə qədər İspaniyadakı yəhudi icmaları öz məhkəmələri və vergi sistemləri olmaqla əhəmiyyətli dərəcədə muxtariyyətə malik idilər. Bununla belə, orta əsr Utrera sinaqoqunu sənədləşdirən heç bir sənəd və ya hökumət qeydləri yox idi. Üstəlik, xəstəxana sinaqoqun üzərində tikilsə belə, ondan heç nə qalmaya bilərdi. Çünki yəhudilərin qovulması tez-tez şiddətli talanlarla müşayiət olunurdu, XX əsrdə baş verən qabağıalınmaz inkişaf isə orta əsr Utrera şəhərinin çox hissəsini dağıtmışdı.

Bununla belə, 2021-ci ilin noyabrında şəhər hökuməti binanın arxeoloji tədqiqatına dair göstəriş verdilər. Onlar sinaqoqun ibadət zalını, perimetr kürsüsünü və Heçalı (Müqəddəs Yazıların saxlandığı kiçik otaq və ya oyuq) müəyyən edərək Karonun hekayəsini arxeoloji faktlarla təsdiqlədilər.

Əsrlər boyu istifadə və təmir binanın görkəmini dəyişsə də, sinaqoqun ilkin quruluşunun bir hissəsi qalır. Şəhər hökuməti mərtəbələrin və divarların orijinal planını bərpa edə və mühüm arxeoloji materialların heç birinə zərər vermədən məkanların həcmini genişləndirə biləcək.

Aparılan arxeoloji işlərə paralel olaraq sinaqoqun ictimaiyyətə açıq olması planlaşdırılır.

# DÖRDGÜNLÜK İŞ HƏFTƏSİ İLƏ BAĞLI ƏN GENİŞMİQYASLI EKSPERİMENT BAŞA ÇATIB



Böyük Britaniyada dördgünlük iş həftəsi ilə bağlı dünyada ən genişmiqyaslı eksperiment başa çatıb. 2022-ci ilin iyunundan dekabrınadək 61 iş yerində aparılan sınaqlarda təqribən 2900 əməkdaş iştirak edib.

"Autonomy" müstəqil tədqiqat mərkəzi və "4 Day Week Global" təşkilatı tərəfindən həyata keçirilən sınaqların nəticələri olduqca maraqlıdır. Şirkətlərin üçdəbiri dördgünlük iş həftəsinə daimi əsasda keçməyi planlaşdırır.

Eksperimentin gedişində əməkdaşlar əməkhaqlarını bütöv şəkildə alıblar.

Nəticəyə əsasən, işə gəlməyən əməkdaşların sayı azalıb. Əməkdaşlar işdə özlərini daha yaxşı hiss ediblər. Eksperiment zamanı onların həm fiziki, həm də psixi vəziyyəti yaxşılaşıb. İşçilərdə stres səviyyəsi aşağı düşüb. Bundan başqa, narahatlıq, yorğunluq və yuxu problemi də azalıb.

Əməkdaşlar beş gün ilə müqayisədə dörd gün ərzində daha çox tapşırıq yerinə yetiriblər.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:55 | 07: 15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |
| 2 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 3 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 4 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 5 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 6 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 7 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 8 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 9 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 10 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 11 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 12 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 13 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 14 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 15 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 16 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 17 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 18 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 19 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 21 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 22 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 23 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 24 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 25 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 26 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 27 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 28 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 29 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 30 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 31 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# 1100 İLDƏN ÇOX YAŞI OLAN QƏDİM TƏSBEH NÜMAYİŞ ETDİRİLƏCƏK

İngiltərənin şimal-şərq sahillərindəki Lindisfarn adasında 1100 il əvvəl dəfn edilmiş bir adamın boynundan tapılan, qızılbalığın nazik onurğa sümüklərindən hazırlanmış, Britaniya ərazisində məlum olan ən qədim təsbeh dəsti ilk dəfə yeni muzeydə nümayiş etdiriləcək. Bu barədə "The Artnewspaper" məlumat verib.

"English Heritage"-in şimal kolleksiyalarının kuratoru Syu Harrisonun sözlərinə görə, Lindisfarn təkcə İngiltərədə Xristianlıq ənənələrinə təsirinə görə deyil, həm də Qərbi Avropada vikinqlərin ilk hücum yeri kimi böyük beynəlxalq əhəmiyyətə malik yer olmuşdur və belə də qalır. "Hazırda muzeydə nümayiş etdirə biləcəyimiz artefaktların zənginliyi, həqiqətən, heyrətamizdir".

Hələ də yalnız dəniz suyu çəkilən zaman torpaq bəndlə getmək mümkün olan adadakı XII əsr xarabalıqları 634-cü ildə qurulan monastırın daha sonrakı mərhələsinə aiddir. Monastır kilsəsi rahiblərin əksəriyyəti 793-cü ildə başlayan vikinq basqınlarından qaçdıqdan sonra bir neçə dəfə yenidən tikilmişdir.

Onlar gedərkən böyük xəzinələrini də, o cümlədən hazırda Dürheym Kafedralının mənəvi ürəyi sayılan Müqəddəs Katbertin cəsədini və bu gün Britaniya Kitabxanasında qorunan, dünyaca məşhur Lindisfarn İncillərini də özləri ilə aparmışdılar. Bununla belə, Lindisfarn heç vaxt tamamilə tərk edilməmişdir. Dürheym Universiteti arxeoloqları və "DigVentures" tərəfindən maliyyələşdirilən ictimaiyyət nümayəndələrinin birgə apardıqları sonuncu qazıntılar Lindisfarnın vikinq basqınları ilə böyük Norman Fəthi arasındakı tarixi əks etdirir.

Yeni "İngiltərə İrsi" Muzeyində nümayiş etdiriləcək tapıntılar arasında üzərində latın və run yazıları olan qəbir daşları, nizə ucu və anqlo-sakson şüşəsindən hazırlanmış kiçik oyun əşyası da var.

## Yadigar söz

**K.Q.Paustovski**

*İnsan ağıllı, sadə, ədalətli, cəsur və xeyirxah olmalıdır. Yalnız o zaman onun bu yüksək titulu - insan titulunu daşımaq hüququ vardır.*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894